RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 34 (8350) ŞƏNBƏ, 15 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



### Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri

## İlham ƏLİYEV: "Bizim alman şirkətləri ilə çox dərin əməkdaşlığımız var"



**Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 56-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, bu gün Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms və assosiasiyanın Cənubi Qafqaz ölkələri üzrə işçi qrupunun rəhbəri, "Veridos GmbH" şirkətinin baş icraçı katibi Andreas Reşmayer ilə görüşüb.

**Prezident İlham ƏLİYEV:** - Sabahınız xeyir.

**Mixael HARMS:** Cənab Prezident, Sizinlə burada - Münxen Təhlükəsizlik Konfransında görüşmək bizim üçün böyük şərəfdir. Mən son beş-altı ildə konfransda iştirak etmişəm və hər dəfə Sizin çıxışlarınız, baxışlarınız mənə çox müsbət təsir bağışlayıb.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.

**Mixael HARMS:** Yəni, ikitərəfli münasibətlərlə yanaşı, region və beynəlxalq düzənlə bağlı baxışlarınızı nəzərdə tuturam. Bizim assosiasiyanın nümayəndələri ilə görüşməyinizi çox yüksək qiymətləndiririk. Cənab Reşmayer bizim assosiasiyada Cənubi Qafqaz üzrə sözçüdür, mən baş icraçı direktoram.

**Prezident İlham ƏLİYEV:** Xoş sözlərinizə görə çox sağ olun. Mənim üçün də konfransda iştirak etmək mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə mən Münxenə neçə ildir ki, səfər edirəm. Bu, auditoriya qarşısında çıxış etmək üçün hər zaman yaxşı fürsətdir. Çünki dünyada, regionumuzda vəziyyət dəyişir. Biz indi Azərbaycanda yeni inkişaf mərhələsinə qədəm qoyuruq. Buna görə də bu mühüm məsələlərin müzakirəsi çox önəmlidir. Xüsusilə səfərimin ikitərəfli formatı da çox əhəmiyyətlidir. Çoxsaylı görüşlər var. Xatırlayıram ki, əksər hallarda bəzi ilkin fikir mübadilələri bir sıra çox nəzərəçarpan nəticələrə gətirib çıxarıb. Buradakı təmaslar nəticəsində çoxlu sayda ticarət müqavilələri imzalanıb. Həmçinin zəruri olan regional təhlükəsizlik, regional əməkdaşlıq, enerji siyasəti dünya üçün daha çox əhəmiyyət kəsb edir. Mən də sizi görməyə çox şadam. Çünki bildiyiniz kimi, bizim alman şirkətləri ilə çox dərin əməkdaşlığımız var. Onlar uzun illərdir Azərbaycanda fəaliyyət göstərir və ölkəmiz üçün çox mühüm olan müxtəlif infrastruktur, enerji istehsalı və tikinti ilə bağlı layihələr həyata keçiriblər. Düşünürəm ki, qarşıdakı illərdə daha çox imkanlar olacaq, çünki daha böyük potensiala malik Azərbaycanın imkanları artır.

**Mixael HARMS:** Biz bilirik ki, Siz iqtisadiyyatın şaxələndirilməsi strategiyasını təqdim etmisiniz. Mən Azərbaycanın gücünü nəzərdə tuturam və biz bunu ikitərəfli ticarətdə, əsasən də neft və qaz sahəsində müşahidə edirik. Bu, çox böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, bu, Sizin ölkənizin rəqabətliliyini təmin edən üstünlükdür, eləcə də infrastruktur sahəsində gördüyünüz işlər. Məsələn, mən Bakı limanına baş çəkdim, bu, çox dərin təəssürat yaradan layihədir. Bir neçə həftə əvvəl "Yaşıl həftə" sərgisində sizin Kənd Təsərrüfatı nazirinizlə görüş keçirdik. Bu da böyük maraq kəsb edir. Rəqəmsallaşma "Giesecke+Devrient" şirkətinin fəaliyyətinin əsas sahəsidir. Siz də "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmusunuz və İpək yolunun qovşağındasınız.

**Prezident İlham ƏLİYEV:** Bəli, doğrudur.

❖ ❖ ❖

Görüşdə Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsi istiqamətində görülən işlər barədə məlumat verildi. İqtisadiyyatın rəqəmsallaşdırılmasının və Davos Forumu ilə Azərbaycan arasında əldə edilmiş razılaşmaya əsasən Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılmasının əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanın 2020-2024-cü illəri əhatə edən regionların inkişafı planından, ölkəmizdə sənayenin inkişafı istiqamətində görülən işlərdən bəhs edildi, bu prosesdə alman şirkətlərinin daha da fəal iştirak etməsinin əhəmiyyəti vurğulandı.

Həmçinin ölkəmizdə xarici investorlar üçün cəlbedici sərmayə mühitinin olduğu diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycanın Şimal-Qərb, Şimal-Cənub və Şərq-Qərb istiqamətləri üzrə nəqliyyat dəhlizlərindəki əsas rolundan bəhs olundu, Azərbaycanın öz coğrafi yerləşmə potensialını fürsətlərə çevirdiyi bildirildi.

Görüşdə Azərbaycan və Almaniya biznes dairələrini bir araya gətirən biznes forumların keçirilməsinin vacibliyi vurğulandı. Azərbaycanda peşə təhsili sahəsində Almaniya ilə birlikdə əməkdaşlığın önəmi qeyd olundu.




**Məlum olduğu kimi, həyata keçirilən sosial-iqtisadi islahatların əsas məqsədi ölkənin ümumi inkişafına nail olmaqdır. Bunun üçün səmərəli yollar axtarılır, müxtəlif layihələr reallaşdırılır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbul edilməsinin də əsas məqsədi məhz hərtərəfli dayanıqlı inkişafın təmin olunmasıdır. Bugünədək dörd dövlət proqramı qəbul edilib və həmin proqramların icrası sayəsində ölkənin ümumi inkişafında mühüm işlər görülüb.**

IV Dövlət Proqramının qəbulundan bir il keçir. Bu il fevralın 3-də regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Həmin tədbirdə dövlət başçısı ötən dövr ərzində görülən işləri müsbət qiymətləndirərək qarşıdakı illərdə də görüləcək işlərin, yerinə yetiriləcək vəzifələrin çox olduğunu bildirdi.

Prezident İlham Əliyev konfransda son 16 ildə ölkədə əldə olunan yüksək iqtisadi nailiyyətləri qiymətləndirərək demişdir: "2003-cü ildən bu günə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, dünyada rekord göstəricidir. Bütün statistik məlumatlar araşdırıla bilər, inanmıram ki, buna bənzər artım tempi olsun. Bu 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır. Bizim valyuta ehtiyatlarımız 27 dəfə artmışdır. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi, keçən ilin yekunlarına görə 51, indi isə 52 milyard dollara çatmışdır. Yəni bu, özlüyündə böyük bir göstəricidir".

Dövlət başçısı həmin tədbirdə qeyri-neft sektorunun inkişaf etdiyini də xüsusi qeyd edərək bildirdi ki, burada artım 3,5 faizdir. Sənaye istehsalında 1,5 faiz artım qeydə alınıb, əsas prioritet olan qeyri-neft sənayesində bu rəqəm 14 faizdən çoxdur. Bunun əsas səbəbi ötən il istismara verilən nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, həmçinin kiçik və orta sahibkarlığa dövlət dəstəyinin artırılması ilə əlaqədardır. Son dövrlər həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri də özəl sektorun inkişafıdır. Qeyd edilən rəqəmlərin yüksək olmasında sahibkarlığın rolu böyükdür. Dünya Bankı özünün "Doing Business" hesabatında Azərbaycanı keçən il 20 ən islahatçı ölkə sırasına daxil edib.

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafında sahibkarlığa böyük önəm verir. Bu məqsədlə dövlət tərəfindən sahibkarlara böyük güzəştlər olunur. Xüsusilə qeyri-neft sektorunda çalışan sahibkarlar dövlətdən həm maddi, həm mənəvi, həm də hüquqi dəstək alır. Sahibkarlığın inkişafı üçün dövlət tərəfindən son illər 2 milyard manatdan çox kredit verilib. Cari ildə sahibkarlara 200 milyon manata yaxın güzəştli kreditlərin verilməsi nəzərdə tutulub.

Qeyri-neft sənayesinin inkişafında bölgələrdə yaradılan sənaye zonalarının və sənaye parklarının rolu böyükdür. Ümumilikdə indiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb, 9 mindən çox iş yeri yaradılıb. Keçən il bu zonalarda istehsalın ümumi həcmində 2,6 faiz artım qeydə alınıb. İndiyədək verilən investisiya təşviqi sənədləri üzrə layihələrin reallaşması yerli istehsala 4 milyard manatdan artıq investisiyanın yatırılmasına, 28 minədək yeni iş yerinin açılmasına imkan yaradıb. Xüsusi vurğulayaq ki, bu layihələrin 87 faizi regionların payına düşür. Bu rəqəmlərdən bir daha məlum olur ki, dövlət qeyri-sənaye müəssisələrinin regionlarda yaradılmasına üstünlük verir. Bununla həm məhsul istehsalının artımına, həm də bölgə əhalisinin məşğulluğuna nail olmaq istəyir.

Bölgələrdə yaradılan nəhəng sənaye parklarından biri - Mingəçevir Sənaye Parkıdır. Parkın ərazisində "Mingəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətin 2 iplik istehsal fabriki tikilərək istifadəyə verildi. Fabrikin yaradılması üçün dövlət tərəfindən 10 milyon manat güzəştli kredit ayrıldı, üstəlik, zəruri infrastruktur da büdcə hesabına yaradıldı. Bundan əlavə, sənaye parkının rezidenti 10 il müddətinə mənfəət, torpaq və əmlak vergilərindən, eləcə də idxalda ƏDV-dən azad olma imkanı qazanıb. Qeyd edək ki, təkcə fabrikin yaradılması ilə bağlı idxal edilən avadanlıqlara görə şirkət 12 milyon manatdan çox ƏDV və gömrük rüsumlarına qənaət edib.

Artıq "Mingəçevir Tekstil" Azərbaycan brendinə çevrilib. Fabrikdə istehsal olunan iplərin Open End və Ring növlərinə dünya bazarında böyük tələbat var. Bu üzdən fabrikin işə salınmasından indiyədək keçən qısa müddətdə istehsal edilən məhsulun ixracına başlanıldı. Müəssisə fəaliyyətə başladığı 2018-ci ildə 4 min tona yaxın keyfiyyətli məhsul istehsal edib ki, onun da 80 faizdən çoxu xarici ölkələrə satılıb. Ötən il ərzində isə fabrikdə 6 min ton Open End və 6 min ton Ring növlü iplik istehsal olunub. Bunun da 10 min tonu idxal edilib. Fabrikin məhsulunun əsas alıcıları Rusiya, Türkiyə, Portuqaliya, Belçika, Ukrayna, Polşa və Pakistandır.

Bu fabrikin istifadəyə verilməsi ölkədə yüngül sənayenin, xüsusilə tekstil sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin keyfiyyətli və ucuz xammalla təmin olunmasına, həmçinin istehsal edilən pambığın hazır məhsula çevrilməsinə şərait yaradır. Fabrikin məhsullarının xarici bazara ixracı ölkənin idxaldan asılılığını aradan qaldırmaqla yanaşı, ölkədən valyuta axınının qarşısını da alır. Bu, milli brendlərimizin yaranmasına, ixtisaslı kadrların yetişməsinə və əhalinin məşğulluğunun təmin edilməsinə geniş imkanlar yaradır.

***"Azərbaycan"***

## Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının dialoq üzrə ən fəal tərəfdaşlarından biridir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norov ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Baş katibi salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sabahınız xeyir, xoş gördük.

**Baş katib Vladimir NOROV:** Sabahınız xeyir. Qrafikinizin sıxlığına baxmayaraq, görüşmək üçün imkan tapdığınıza görə bir daha Sizə minnətdarlığımı bildirmək istərdim.

**Prezident İlham ƏLİYEV:** Sizi görməyə şadam. Mənə görüş haqqında dedilər. Görüşməyə həmişə şadıq, üstəlik, artıq Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında dialoq üzrə tərəfdaş statusuna malikdir. Təşkilata dialoq üzrə tərəfdaş qismində qoşulmağımız da əməkdaşlığa verdiyimiz əhəmiyyəti təsdiqləyir. Şanxay Əməkdaşlıq Təşkilatının bütün üzv ölkələri ilə yaxşı, yaxın, mehriban qonşuluq münasibətlərimiz var. Biz birlikdə ikitərəfli, bəzən üçtərəfli formatda nəqliyyat, energetika, infrastrukturla bağlı çoxlu mühüm layihələri reallaşdırırıq.

**Baş katib Vladimir NOROV:** İlham Heydər oğlu, deyə bilərəm ki, bu gün Azərbaycan müşahidəçi ölkələr üçün nümunə olaraq dialoq üzrə ən fəal tərəfdaşlardan biridir. Qeyd edim ki, aprelin 21-də Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafı məsələləri üzrə konfransının keçirilməsi ilə bağlı Sizin təşəbbüsünüz, Azərbaycanın təşəbbüsü çox vaxtında atılmış mühüm addımdır. Üzv ölkələrin əksəriyyəti artıq bu təşəbbüsü dəstəkləyir. Düşünürəm ki, bu konfrans nəqliyyat sahəsində müvafiq qurumlar arasında sıx əlaqələrin qurulması və əməkdaşlıq məsələlərinin müzakirəsi üçün vacib meydança olacaq.

❖ ❖ ❖

Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatındakı fəal tərəfdaşlıq üzrə dialoq statusunda rolu xüsusi qeyd olundu. Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq çərçivəsində bu il nəqliyyat məsələlərinə həsr olunacaq konfransın keçiriləcəyi bildirildi.

Söhbət zamanı Azərbaycanda keçirilən seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün Şanxay Əməkdaşlıq Təşkilatına göndərilən dəvət yüksək qiymətləndirildi və təşkilatın da geniştərkibli nümayəndə heyəti ilə bu seçkilərdə iştirak etdiyi, seçkilərin azad, ədalətli, demokratik şəkildə keçirildiyi diqqətə çatdırıldı. Həmçinin Azərbaycanda əhatəli islahatların həyata keçirildiyi qeyd edildi.

Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyi, təşkilatın bütün üzv ölkələri ilə yaxşı münasibətlərə malik olduğu vurğulandı.

## Seçici iradəsinin təcəssümü

### İlham ƏLİYEV: "Parlament seçkiləri bir daha onu göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir"

Hər bir ölkənin ictimai-siyasi həyatındakı ən mühüm hadisələrdən biri seçkilərdir. İstənilən seçkilərin ədalətli, şəffaf, azad şəraitdə keçirilməsi həmin ölkədə demokratik mühitin yüksək olması anlamını da verir. Demokratik inkişaf yolu seçən Azərbaycanda da vətəndaşların seçki hüquqları yüksək səviyyədə təmin olunur.

#### Mühüm siyasi hadisə

Respublikamızda seçkilərin azad və sərbəst şəkildə həyata keçirilməsi məqsədilə müasir tələblərə uyğun təkmil qanunvericilik bazası mövcuddur. Bununla yanaşı, seçkilərin yüksək səviyyədə keçirilməsi üçün məntəqə komissiyalarından MSK-yadək, bütün seçki atributlarında lazımi şərait yaradılıb, seçki komissiyaları müasir texniki avadanlıqlarla təchiz edilib. Hər dəfə Azərbaycanda seçkilərin demokratik əsaslarla keçirilməsini müşahidə etmək məqsədilə dünya ölkələrindən, beynəlxalq təşkilatlardan müşahidəçilər dəvət olunur, müxtəlif qeyri-hökumət təşkilatları seçki proseslərini izləyirlər.

Bütün bunlar təsdiq edir ki, vətəndaşların öz iradələrini sərbəst şəkildə ifadə etməsi üçün ən münasib variant olan seçkilər Azərbaycanda da mühüm siyasi hadisə olaraq qəbul edilir.

*Ardı 4-cü səh.*

## Paşinyanın növbəti uğursuzluğu

### Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır

Ermənistanda Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında çəkişmə ictimai-siyasi müstəvidə daha gərgin vəziyyət yaradıb. Hakimiyyət belə vəziyyətdə yenə keçmiş hərbi xunta təmsilçilərinə qarşı administrativ metodlardan istifadə edərək onları neytrallaşdırmağa çalışır. Elə bunun nəticəsidir ki, artıq aprelin 5-də ölkədə referendum təyin edilib.

Görünən odur ki, seçkilərdən sonra Tovmasyan avtomatik olaraq öz postundan uzaqlaşdırılacaq, Konstitusiya Məhkəməsinin yeni tərkibi seçiləcək. Lakin Prezident Armen Sarkisyan köhnə hakimiyyətin adamı olduğu üçün Nikol Paşinyanın dəyişikliklər islahatına mane olur. Prezidentlə baş nazir arasında qarşıdurmanın dərinləşəcəyi ehtimalı böyükdür.

Məhz belə bir vaxtda, erməni mediasının məlumatına görə, Şəhərsalma Komitəsinin rəhbəri Vaqan Vermişyan həbs olunub. Bildirilir ki, Vermişyanın həbsi onun ofisində Təhlükəsizlik Xidməti tərəfindən aparılan axtarışdan sonra baş tutub. Məlumata görə, Şəhərsalma Komitəsinin rəhbəri rüşvət almaqda şübhəli bilinir. Milli Təhlükəsizlik Xidmətinin məlumatına görə, Vermişyan vəzifə səlahiyyətlərini aşaraq bir neçə tikinti şirkətindən il ərzində 2,5 milyon dram rüşvət alıb.

*Ardı 7-ci səh.*

## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri

# Azərbaycan qazının Avropa bazarına nəqli yeni mənbə və yeni marşrutdur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda "dəyirmi masa"da iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı "dəyirmi masa"da çıxış edib.**





### Prezident İlham Əliyevin çıxışı

- Ötən il ölkəmiz və düşünürəm ki, Avropanın enerji təhlükəsizliyi üçün əlamətdar olub. Çünki biz tərəfdaşlarımızla birlikdə artıq Türkiyə-Yunanıstan sərhədinə çatan, əsas qaz kəməri olan TANAP-ı uğurla başa çatdırdıq. Bu, o deməkdir ki, "Cənub qaz dəhlizi"nin dörd seqmentindən üçü artıq uğurla tamamlanıb. Sonuncu seqmentə gəlincə, TAP layihəsi bu ilin sonunda tamamlanacaq. Beləliklə, 3,5 min kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək. Bu, regionumuzda əsas infrastruktur layihələrindən biridir. Bu, əlbəttə ki, bizim üçün, tərəfdaşlarımız üçün, Avropanın enerji təhlükəsizliyi üçün çox vacibdir.

Bu ayın sonunda biz görülən işləri nəzərdən keçirmək və növbəti dövr üçün görüləcək işləri planlaşdırmaq məqsədilə hər il Bakıda keçirdiyimiz ənənəvi "Cənub qaz dəhlizi" Məşvərət Şurasına evsahibliyi edəcəyik. Ümidvaram ki, iştirakçıların sayı çox olacaq. Bu gün biz gələcək layihələrimizlə bağlı yeni ölkələrlə işləyirik. Çünki "Cənub qaz dəhlizi" yeddi ölkəni - Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşdirir. Üç Balkan ölkəsi isə - Bosniya və Herseqovina, Monteneqro və Xorvatiya - bu üç ölkənin ərazisindən keçən, xüsusilə İonik-Adriatik kəmərinin tikintisini nəzərdə tutan ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq bizimlə anlaşma memorandumu imzalayıblar. Texniki nöqteyi-nəzərdən bu, mümkündür, qaz ehtiyatları baxımından da. Biz hasilatı artırmışıq və əlbəttə ki, Avropa Komissiyası tərəfindən daha yüksək dəstəyə ehtiyac olacaq. Çünki əgər bu layihə də Avropa İttifaqının ümumi maraqlarına uyğun layihələr siyahısına daxil edilsə, onun həyata keçirilməsi daha sürətli olacaq. Bizimlə "Cənub qaz dəhlizi" üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq. Alternativ mənbə təkcə marşrut deyil. Çünki təhlükəsizlikdən danışanda biz mənbədən danışmalıyıq. Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur. Düşünürəm ki, bu, bizim layihəmizin üstünlüyüdür və buna görə də Avropa İttifaqı ona güclü dəstək verir. Bu səbəbdən də yekun tamamlanma işlərinin bu ilin sonunadək olacağına baxmayaraq, biz "Cənub qaz dəhlizi"ni artıq tamamlanmış layihə hesab edə bilərik.

Bu arada, Azərbaycan çox sabit neft təchizatçısı olaraq qalır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin açılışından bəri heç bir fasilə, fors-major və ya problem baş verməyib. Geosiyasi və texniki nöqteyi-nəzərdən onu da həyata keçirmək çox çətin idi, çünki ilk dəfə olaraq o, Xəzər və Aralıq dənizlərini birləşdirirdi.

Bəzi ölkələr üçün, o cümlədən Avropa ölkələri üçün Azərbaycan nefti onların istehlakının təxminən 40 faizini təşkil edir. Ona görə də biz neft təchizatçısı kimi etibarlı tərəfdaş olmağa davam edəcəyik. Bu yaxınlarda biz BP şirkəti ilə müqaviləni uzatmışıq. 2050-ci ilədək bizim nisbətən sabit istehsal profilimiz olacaq. Ona görə də yeni layihələrin kəşfiyyat işləri aparılır. Hazırda biz, belə demək mümkündürsə, neft bumunun ikinci fazasını yaşayırıq, bir çox şirkətlər, böyük şirkətlər geri qayıdaraq yeni layihələrə cəlb olunur və bu da bizə istehsal profilini saxlamaqla yanaşı, həm də onu artırmaq imkanını verəcək.

Biz "OPEC+"un fəal üzvüyük. Onların görüşlərindən biri bizim dəvətimizlə Bakıda keçirilib. Həmçinin 2016-cı ildə Davosda "Neftin qiyməti ilə bağlı nə etmək olar" sualı veriləndə mən dedim, yaxşı olar ki, əsas qeyri-OPEC ölkələri və OPEC ölkələri bir araya gələrək razılaşsınlar. Mən şadam ki, bu, baş verdi. Düşünürəm ki, bu, davam etməlidir. Xüsusilə indi bu koronavirus vəziyyəti ilə bağlı, - cənab Birol çox maraqlı məlumat verdi, - neft istehsal edən ölkələrdə bütün çətinliklərə baxmayaraq, neftin qiymətinin nəyə görə aşağı olması və bundan da aşağı səviyyəyə düşə bilməsini nəzərə alaraq düşünürəm ki, "OPEC+" əməkdaşlığının davam etdirilməsi çox vacibdir. Çünki bu gün bizdə vəziyyət elədir ki, OPEC və qeyri-OPEC ölkələri bir təşkilatda fəaliyyət göstərir. Bizim bundan başqa belə təşkilatımız və əməkdaşlığımız yoxdur. Bəzən bir təşkilat daxilində razılığa gələ bilmirlər. Bizdə isə bu nadir format var və biz bunu əldən buraxmamalıyıq.

Son olaraq bərpaolunan enerji ilə bağlı. Azərbaycanda da buna böyük diqqət yetirilir. Bizim planımız 2030-cu ilə qədər elektrik enerjisinin 30 faizini bərpaolunan enerji hesabına ödəməkdir. Bu ilin yanvarında biz külək və günəş enerjisi ilə işləyən 440 meqavatlıq stansiyaların tikintisi ilə bağlı bərpaolunan enerji üzrə ixtisaslaşmış aparıcı şirkətlərlə iki müqavilə imzalamışıq. Bu işlər tamamilə xarici investisiyalar hesabına görüləcək və bizim bununla bağlı azı əlavə 5 təklifimiz var. Bizim ölkə neft, qaz, Günəş, küləklə zəngindir. Külək enerjisi stansiyalarından bir neçəsi Xəzər dənizində qurula bilər. Bunun üçün böyük imkan var. Lakin mən tamamilə əminəm ki, biz bunu ehtiyatla etməliyik. Çünki bu 440 meqavatlıq enerji stansiyası bizim sistemimizə dərindən inteqrasiya olunmalıdır ki, küləkli və günəşli hava olmayanda elektrik enerjisinin təchizatında heç bir fasilə yaranmasın və elektrik təchizatı kəsilməsin. Bu məsələni diqqətə çatdırmaq üçün yaratdığınız imkana görə təşəkkür edirəm.

# Küveytlə əməkdaşlıq üçün geniş imkanlar var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Qoşulmama Hərəkatındakı sədrliyi yüksək qiymətləndirildi və bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların olduğu bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Küveyt arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinin və hökumətlərarası komissiyanın daha da fəallaşdırılmasının vacibliyi qeyd edildi.

Görüşdə ölkələrimiz arasında turizm sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Küveytdən Azərbaycana gələn turistlərin sayında əsaslı artımın müşahidə olunduğu vurğulandı, tezliklə Küveyt Hava Yollarının Azərbaycana uçuşlar həyata keçirəcəyi diqqətə çatdırıldı.

Söhbət zamanı, həmçinin ölkələrimizin "OPEC+" çərçivəsində səmərəli əməkdaşlıq etdikləri bildirildi.

# Ölkəmiz dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanınır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Fatih Birol Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Enerji təhlükəsizliyi" mövzusunda "dəyirmi masa"dakı çıxışını çox yüksək qiymətləndirdi. İcraçı direktor qeyd etdi ki, Azərbaycan dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanınır, bu da bilavasitə Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir.

Görüşdə "OPEC+" formatında Azərbaycanın təşəbbüsləri yüksək qiymətləndirildi. Son dövrlərdə Azərbaycanın alternativ enerji resurslarının inkişafı istiqamətində atdığı addımların önəmi vurğulandı, eyni zamanda, dünya enerji bazarındakı mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan "hamının hamıya" prinsipi ilə bütün əsir və girovların dəyişdirilməsini vacib hesab edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı Ermənistan tərəfindən girovluqda saxlanılan azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunmasının, bu istiqamətdə səylərin artırılmasının vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində humanitar əsaslarda "hamının hamıya" prinsipi ilə bütün əsir və girovların dəyişdirilməsinin vacibliyini vurğuladı.

# İtaliya şirkətləri Azərbaycanda icra olunan layihələrin həyata keçirilməsində yaxından iştirak edirlər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Münxendə "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İtaliya arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Qeyd olundu ki, ölkələrimiz siyasi, iqtisadi-ticari və digər sahələrdə yaxşı əməkdaşlıq edirlər, hökumətlərarası komissiya səmərəli fəaliyyət göstərir.

Görüşdə vurğulandı ki, İtaliya şirkətləri Azərbaycanda icra olunan layihələrin həyata keçirilməsində yaxından iştirak edirlər.

Söhbət zamanı əməkdaşlığın perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri

# Qazaxıstan Azərbaycanla əməkdaşlığı qiymətləndirir və onu qoruyur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşüb.**





AZƏRTAC xəbər verir ki, Qazaxıstan Prezidentini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Kasım-Jomart Kemeleviç, Sizinlə yenidən görüşməyimə çox şadam. Burada görüşmək, münasibətlərimizin gündəliyini bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. Hər şey çox uğurla gedir. Bizim birgə layihələrimiz çoxdur, onlar fəal həyata keçirilir. Buna görə də ümidvarıq ki, 2020-ci il də ölkələrimiz arasında münasibətlər üçün uğurlu olacaq. Biz əmtəə dövriyyəsini artırmağa çox ümid bəsləyirik. Düşünürəm ki, nəqliyyat, energetika, turizm sahələrində yaxşı imkanlar var. Ölkələrimizin vətəndaşları arasında fəal gediş-gəliş var. Bu, ölkələrimizdə turizmin inkişafı üçün çox yaxşı perspektivlər də yaradır.

Əlbəttə, bizim tərəfimizdən ratifikasiya edilmiş Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə Konvensiyanın imzalanması son dövrün ən vacib hadisəsi olub. İnanıram ki, Xəzərdə gələcək əməkdaşlığımız bütün Xəzəryanı ölkələrə daha çox dividend gətirəcək.

Kommunikasiya sahəsində fəal qarşılıqlı fəaliyyəti də qeyd etmək istərdim. Ötən il Xəzərin dibi ilə kabelin çəkilməsinə başlanılıb. Bu, ölkələrimizi daha sıx birləşdirəcək bir layihədir. Yəni, biz ikitərəfli münasibətlərin davamlı inkişafı yolu ilə gedirik. Əminəm ki, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri gələcəkdə də möhkəmlənəcək.

**Prezident Kasım-Jomart TOKAYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu. Sizi burada, Münxendə görməyimə şadam. Elə bu yaxınlarda biz Soçidə görüşmüşük. Bizim çox yaxşı görüşümüz oldu. Sonra biz Aşqabadda MDB Sammitində görüşdük. Dövlətlərimiz arasında münasibətlərə gəldikdə isə həqiqətən də çox böyük yol qət edilib. Əslində elə sıfırdan başladıq və indi, demək olar, bütün sahələrdə qarşılıqlı münasibətlərin çox yüksək səviyyəsinə nail olmuşuq. Bu əməkdaşlığın əsasını bizim böyük sələflərimiz Nursultan Abişeviç Nazarbayev və Heydər Əlirza oğlu Əliyev qoyublar. Mən özüm Xarici İşlər naziri olanda müəyyən mənada bu əməkdaşlığın qurulmasında iştirak etmişəm. Fəxr ediləsi uğurlarımız var. Şəksiz ki, Qazaxıstan Azərbaycanla əməkdaşlığı qiymətləndirir və onu qoruyur. Siz düzgün qeyd etdiniz ki, bizdə istər nəqliyyat, istər kommunikasiyalar, istərsə də ticarət olsun, strateji xarakter daşıyan sahələr var. Biz, mahiyyətcə, Xəzər dənizi vasitəsilə qonşu dövlətlərik. Xəzər dənizinin statusu haqqında müvafiq Konvensiya da Aktau şəhərində imzalanıb. Bu, Xəzərdə irimiqyaslı əməkdaşlığın təməlini qoyur və əlbəttə, bu əməkdaşlıq, mahiyyət etibarilə, strateji əməkdaşlıqdır. Biz fürsətdən istifadə edərək indicə səfərlərin qrafikinə, o cümlədən istər Sizin Qazaxıstana səfərlərinizin, istərsə də bizim birinci Prezidentimizin Bakıya səfərlərinin qrafikinə baxdıq. Sizin üçün hər hansı münasib vaxtda Sizi ölkəmizə səfərə dəvət etməyi vacib sayıram. Bizim həqiqətən də müzakirə olunası və həll ediləsi bir çox məsələlərimiz var. Çünki həyat yerində saymır, qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olmasına baxmayaraq, yeni hüdudlar yaranır ki, onları da biz birgə səylərimizlə aşmalıyıq.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

❖ ❖ ❖

Söhbət zamanı Qazaxıstan Prezidenti dövlətimizin başçısını ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbrik etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Mövcud əlaqələr münasibətlərimizin fəal inkişaf etdiyini göstərir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Moldova Prezidentini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- İqor Nikolayeviç, Sizi bir daha görməyimə şadam. Biz beynəlxalq tədbirlərdə müntəzəm görüşürük və bir daha görüşmək, gündəliyə nəzər salmaq, əməkdaşlığın inkişafının gələcək yollarını müəyyən etmək üçün hər hansı platformadan istifadə etmək ənənəsini davam etdiririk. İl yeni başlayıb. Ona görə də düşünürəm ki, bu il bizim münasibətlərimiz üçün məhsuldar olmalıdır. Nəzərdə tutduqlarımız prinsipcə yerinə yetirilir. Mövcud əlaqələr münasibətlərimizin fəal inkişaf etdiyini göstərir. Biz Sizinlə münasibətləri konkret iqtisadi amillərlə zənginləşdirmək haqqında fikir mübadiləsi aparmışıq. Düşünürəm ki, bu il daha fəal iqtisadi əməkdaşlıq olacaq. Əlbəttə, bizim əlaqələrimiz davam etdiriləcək. Ona görə də düşünürəm ki, bu il də münasibətlərimiz üçün müsbət olacaq. Bizim münasibətlərimiz dostluq münasibətləridir. Biz həmişə bir-birimizi dəstəkləməyə çalışırıq. Əlbəttə, ölkəmizə Sizin səfərinizi xatırlayıram. Bu cür fəal siyasi dialoqun davam etməsi üçün Sizi bu il planlaşdırılan beynəlxalq tədbirlərdə yenidən səbirsizliklə gözləyirik.

**Prezident İqor DODON** dedi:

- Hörmətli cənab Prezident, əvvəla Sizinlə Münxendə mühüm beynəlxalq tədbirdə görüşməyimə çox şadam. Bizim ikitərəfli münasibətlərimizin çox yaxşı dinamikasını qeyd etmək istəyirəm. İmzaladığımız sazişlər faktiki olaraq əlaqələrimizin bütün spektrini əhatə edir. Sizi parlament seçkilərinin keçirilməsi, partiyanızın əldə etdiyi nəticələr münasibətilə təbrik edirəm. Bilirəm, seçkiləri bizim də müşahidəçilərimiz, həmçinin Prezident tərəfdarı olan Sosialistlər Partiyasının nümayəndələri də izləyiblər. Onlar təşkilati işlərin çox yaxşı səviyyəsini qeyd ediblər, demokratik seçkilər keçirilib. Sizi bu münasibətlə təbrik edirik.

Bu il bizim ikitərəfli münasibətlərimiz üçün çox vacib ildir. Biz hələ 2017-ci ildə Sizinlə Moldovada, Qaqauzda bir sosial layihəyə başladıq. Sizi bir daha rəsmi olaraq Moldova Respublikasına dəvət etmək istəyirəm. Bu il biz artıq onun açılışını etməliyik. Ümidvaram ki, bu il Sizin rəsmi səfəriniz olacaq. Biz bir neçə mühüm tədbir keçirəcəyik. Hökumətlərarası Komissiyanın iclasını keçirmək lazımdır. Bilirsiniz, indi Moldovada mənim keçmiş müşavirim cənab Kiku İon Vasilyeviçin başçılıq etdiyi yeni hökumət fəaliyyət göstərir. Biz artıq öz tərəfimizdən Hökumətlərarası Komissiyanın yeni heyətini təsdiq etmişik. Ümidvaram ki, yaxın vaxtlarda həmsədrlərin Hökumətlərarası Komissiyanın iclasına hazırlıq üçün görüşü olacaq. O, bizdə də, Sizdə də keçirilə bilər. Bu, bizim Sizinlə razılaşmamızdan asılıdır. Lakin çox ümidvarıq ki, yaxın aylarda Siz rəsmi səfərlə bizim ölkəmizə gələcəksiniz.

**Prezident İlham ƏLİYEV:** Dəvətə görə sağ olun. Gözəl Moldovaya səfər etmək imkanından məmnuniyyətlə istifadə edəcəyəm. Mənim çox yaxşı xatirələrim var.

❖❖❖

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində uğurlu əməkdaşlıq edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Münxendə Avropa İttifaqının büdcə və administrasiya məsələləri üzrə komissarı Yohannes Han ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında gündəlikdə duran cari məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində uğurlu əməkdaşlıq etdiyi vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

# Ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Bakının mötəbər tədbirlərin keçirildiyi məkan olduğu bildirildi. Ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu qeyd edildi. Artıq Əfqanıstan yüklərinin Lapis-Lazuli marşrutu ilə Azərbaycan ərazisindən daşınıldığı qeyd edildi, gələcəkdə bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyi vurğulandı.

Həmçinin görüşdə Azərbaycan-Əfqanıstan iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün hər iki ölkənin müvafiq qurumları arasında əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

# Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və dost Serbiya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim xalqlarımızın maraqlarına uyğun inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2020-ci il*

# Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin aprel ayında Azərbaycanın görkəmli yazıçısı və dövlət xadimi Nəriman Nəcəf oğlu Nərimanovun anadan olmasının 150 illiyi tamam olur.

Nəriman Nərimanov məşhur yazıçı, dramaturq, publisist və maarifçi kimi Azərbaycan ədəbiyyatının qabaqcıl ideyalarla və demokratik fikirlərlə zənginləşməsində böyük rol oynamışdır. Onun zamanın vacib məsələlərinə toxunan və əsas qayəsini maariflənməyə, mədəni yüksəlişə çağırış təşkil edən əsərlərində dərin insanpərvərlik ruhu hakimdir. Nəriman Nərimanov dramaturgiyası Azərbaycan teatrının inkişafına dəyərli töhfələr vermişdir. Milli bədii nəsr tarixində də özünəməxsus layiqli yer tutan vətənpərvər ədib, həmçinin ciddi və aktual publisistika nümunələrinin müəllifi olaraq tanınmışdır.

Nəriman Nərimanovun bədii yaradıcılığı ilə ictimai və siyasi fəaliyyəti arasında üzvi bağlılıq vardır. Onun ömrünün mühüm hissəsi qəlbən inandığı və həyatının başlıca vəzifəsi sayaraq müqəddəs amala çevirdiyi xalq işi uğrunda ardıcıl mübarizələrdə keçmişdir. Siyasi çarpışmaların daha da gərginləşdirdiyi son dərəcə mürəkkəb şəraitə baxmayaraq, Nəriman Nərimanov milli maraqları daim üstün tutan rəhbər kimi taleyüklü problemlərə münasibətdə xalqımızın mənafeyini imkanlarının ən son həddinədək müdafiə etmişdir. O, keçmişimizin mədəni sərvətlərinin mühafizəsinə, ana dilinin saflığı məsələlərinə xüsusi diqqət yetirmiş, elmin, maarifin və mədəniyyətin inkişafı yolunda var qüvvəsi ilə çalışmış, dövrün milli məfkurə daşıyıcısı olan şəxsiyyətlərinə ehtiram və qayğı ilə yanaşmışdır.

Nəriman Nərimanovun XX əsr Azərbaycan tarixində əhəmiyyətli iz qoymuş ictimai-siyasi fəaliyyəti məhz Ulu Öndər Heydər Əliyevin nüfuzu və qətiyyəti sayəsində layiqli qiymətini alaraq bütöv şəkildə doğma xalqa çatdırılmışdır. Nəriman Nərimanovun 100 və 125 illik yubileylərinin təntənə ilə qeyd edilməsinin, Bakıda əzəmətli abidəsinin ucaldılmasının və ev-muzeyinin yaradılmasının, həmçinin ölkəmizin hüdudlarından kənarda xatirəsinin əbədiləşdirilməsinin təşəbbüskarı Ümummilli Lider Heydər Əliyev olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycanın görkəmli yazıçısı, dövlət və ictimai-siyasi xadimi Nəriman Nərimanovun anadan olmasının 150 illiyinin qeyd edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, görkəmli yazıçı və dövlət xadimi Nəriman Nərimanovun 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2020-ci il*

# Azərbaycan Prezidentinin köməkçisi Türkiyənin NTV kanalına müsahibəsində Ermənistan-Azərbaycan münaqişəsindən danışıb


**Azerbaycan Cumhurbaşkanı Yardımcısı Hacıyev NTV'ye konuştu: Ermenistan çözüme yanaşmıyor**

Dağlık Karabağ sorunu 30 yılı aşkın bir süredir devam ediyor. Ermenistan'ın Azerbaycan topraklarını işgal etmesiyle başlayan süreçte büyük acılar yaşandı. Azerbaycan Türkleri evlerinden, yurtlarından edildi. Çok sayıda 'Karabağlı Azerbaycan Türk'ü hayatını kaybetti. Azerbaycan Devlet Başbakanı İlham Aliyev'in Dış İlişkilerden Sorumlu Yardımcısı Hikmet Hacıyev NTV'ye konuştu. İşte "Yukarı Karabağ" konusunda masadaki son durum... (Dünyanın Haberi, NTV)




**Azerbaycan Cumhurbaşkanı Yardımcısı Hacıyev NTV'ye konuştu: Ermenistan çözüme yanaşmıyor**

Dağlık Karabağ sorunu 30 yılı aşkın bir süredir devam ediyor. Ermenistan'ın Azerbaycan topraklarını işgal etmesiyle başlayan süreçte büyük acılar yaşandı. Azerbaycan Türkleri evlerinden, yurtlarından edildi. Çok sayıda 'Karabağlı Azerbaycan Türk'ü hayatını kaybetti. Azerbaycan Devlet Başbakanı İlham Aliyev'in Dış İlişkilerden Sorumlu Yardımcısı Hikmet Hacıyev NTV'ye konuştu. İşte "Yukarı Karabağ" konusunda masadaki son durum... (Dünyanın Haberi, NTV)



Türkiyənin nüfuzlu NTV kanalı Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsini yayıb.

AZƏRTAC xəbər verir ki, müsahibədə türkdilli tamaşaçılara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövcud vəziyyət barədə məlumat verilir. Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından ötən ili münaqişənin həlli baxımından itirilmiş il kimi dəyərləndirən Azərbaycan Prezidentinin köməkçisi diqqətə çatdırıb ki, təcavüzkar ölkə üzdə özünü sülh tərəfdarı kimi göstərməyə çalışsa da, əslində, işğalçılıq siyasətindən əl çəkmir.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qətnamələrini xatırladan Hikmət Hacıyev vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsi yalnız mərhələli qaydada həllini tapmalıdır. Çünki bu münaqişənin ortaya çıxardığı və həllini gözləyən mühüm məqamlar var. Bunun üçün, ilk növbədə, işğalçı Ermənistanın hərbi qüvvələri Dağlıq Qarabağ da daxil olmaqla, işğal altında saxlanılan bütün Azərbaycan ərazilərini tərk etməlidir. Sonra bu bölgələrdən məcburi köçkün azərbaycanlılar öz yerlərinə qayıtmalıdırlar. Əgər bu baş verərsə, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi hüquqi cəhətdən həyata keçirilmiş olar.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva onkoloji xəstəlikdən əziyyət çəkən uşaqlarla görüşüb





Fevralın 14-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva onkoloji xəstəlikdən əziyyət çəkən uşaqlarla görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Onkologiya Mərkəzinin nəzdindəki Uşaq Onkologiya Klinikasında keçirilən görüş zamanı Leyla Əliyeva uşaqların səhhəti və müalicələrinin gedişi ilə maraqlanıb.

Klinikada müalicə olunan uşaqlara hədiyyələr təqdim edilib.

# Müşavirədə təhsilin keyfiyyəti, bu sahədə yeniliklər, innovasiyaların tətbiqindən bəhs edilib



Təhsil Texnologiyaları Mərkəzində Təhsil Nazirliyi aparatı əməkdaşlarının və yerli təhsili idarəetmə orqanları rəhbərlərinin iştirakı ilə "Ümumi təhsil: mövcud vəziyyət və gələcək hədəflər" mövzusunda müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Təhsil naziri Ceyhun Bayramov çıxış edərək təhsilin keyfiyyəti və buna təsir edən amillər, təhsildə yeniliklər, innovasiyaların tətbiqindən danışıb. Ötən il yerli təhsili idarəetmə orqanları rəhbərlərinin, məktəb direktorlarının iştirakı ilə regional zona müşavirələrinin keçirildiyini, hər bir qurumun fəaliyyətinə dair illik hesabatların dinlənildiyini deyən Təhsil naziri bu məzmunda tədbirlərin cari ildə də davam etdiriləcəyini bildirib. Rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) qarşısında duran vəzifələrə toxunan C.Bayramov qeyd edib ki, yerli təhsili idarəetmə orqanları tabeliyində olan bütün məktəblərin vəziyyətinə dair monitorinqləri davamlı etməli, əldə olunan nəticələrə əsasən adekvat tədbirlər görməlidirlər. Nazirin sözlərinə görə, IX və XI sinif buraxılış imtahanlarının nəticələri ciddi təhlil edilməli və bundan nəticə çıxarılmalıdır. Nazir həmçinin məktəblərin dərsliklərlə təminatından, məktəb-valideyn münasibətlərinin düzgün qurulmasından, regionlarda istedadlı uşaqlarla bağlı işin təşkilindən, məktəbdənkənar fəaliyyətin vacibliyindən danışıb.

Daha sonra çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva yerli təhsili idarəetmə orqanlarının rəhbərlərinə təklif və tövsiyələrini verib. Nazir müavini təqdimatında tədris ilinin prioritet istiqamətlərindən, məktəb rəhbərlərinin üzərinə düşən funksiyalardan söz açıb, bölgələr üzrə müvafiq nəticələri diqqətə çatdırıb.

Müşavirədə "Təhsildə keyfiyyətin təminatı", "Təhsilin maliyyələşdirilməsi və müasir təchizat sisteminin yaradılması", "Tədris resursları ilə təminat və ehtiyat dərsliklər", "İnsan resurslarının idarə edilməsi və elektron məlumat bazasının təkmilləşdirilməsi" mövzularında panel müzakirələr aparılıb.

Yekunda Təhsil Texnologiyaları Mərkəzi ilə tanışlıq olub.

# Müdafiə nazirinin müavini Avropa İttifaqının xüsusi nümayəndəsi ilə görüşüb

Fevralın 14-də Azərbaycan Respublikasının Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində və dövlət sərhədindəki hazırkı vəziyyətə dair fikir mübadiləsinin aparıldığı görüşdə nazir müavini beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb. Nazir müavini vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə əsas maneədir.

T.Klaar Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edib. Qonaq bildirib ki, Avropa İttifaqı bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

# Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın 7-ci iclası keçirilib

## İclasın yekununda gələcək iqtisadi əməkdaşlıq istiqamətlərini əhatə edən protokol imzalanıb

Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində "Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə birgə Komissiya"nın 7-ci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda komissiyanın Azərbaycan tərəfindən həmsədri, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

İclasdan əvvəl S.Babayevlə komissiyanın Macarıstan tərəfindən həmsədri, Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyyarto arasında ikitərəfli görüş olub, ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Komissiyanın 7-ci iclasında Azərbaycan-Macarıstan əlaqələrinin ildən-ilə inkişaf etdiyini vurğulayan S.Babayev iki ölkənin dövlət başçıları tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikası ilə Macarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsində mühüm addım olduğunu qeyd edib. Bildirib ki, xüsusilə də bəyannamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyini əks etdirən müddəaların yer alması Azərbaycan və Macarıstan arasında yüksəksəviyyəli siyasi dialoqun və strateji tərəfdaşlığın daha bir göstəricisidir.

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin ölkəmizdə bütün sahələrdə dinamik inkişafı təmin etdiyini vurğulayan S.Babayev, eyni zamanda, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi qəbul olunduğunu, xarici ölkələrlə qarşılıqlı maraqlar əsasında uğurlu əməkdaşlıq əlaqələrini daim genişləndirdiyini diqqətə çatdırıb.

Nazir ötən dövrdə Macarıstanla imzalanan əməkdaşlıq sənədlərinin əlaqələrin hüquqi bazasını formalaşdıraraq genişlənməsinə zəmin yaratdığını deyib. O, xüsusilə enerji sahəsində Macarıstanla fəal əməkdaşlıq əlaqələrinin mövcud olduğunu və bu əməkdaşlığın davam etdirilməsinin, eləcə də bərpaolunan enerji sahəsində əməkdaşlıq potensialının araşdırılmasının əhəmiyyətini qeyd edib.

İqtisadi əməkdaşlıqda ticarət əlaqələrinin önəmindən bəhs edən S.Babayev 2019-cu ildə Azərbaycanın Macarıstan ilə ticarət dövriyyəsinin həcminin 35,70 milyon ABŞ dolları təşkil etdiyini bildirib. Ticarət əlaqələrinin inkişafı məqsədilə aparılan işləri, həmçinin ölkəmizin ixrac missiyasının Macarıstana səfərinin, Macarıstan da daxil olmaqla, Mərkəzi Avropa üzrə Azərbaycanın ticarət nümayəndəsinin təyin edilməsinin və s. mühüm rolunu diqqətə çatdırıb. O, ticarət, nəqliyyat, kənd təsərrüfatı, xidmət sahələri üzrə Macarıstan şirkətlərinin ölkəmizdə uğurlu fəaliyyətini, investisiya sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. S.Babayev iki ölkə arasında əməkdaşlıq üçün mövcud olan potensialın əlaqələrin daha geniş miqyasda və daim yüksələn xətt üzrə inkişafına imkan yaratdığını bildirib.

P.Siyyarto ölkəsinin Azərbaycanla əlaqələrinin dost münasibətlər əsasında inkişaf etdirilməsində maraqlı olduğunu deyib. O, iqtisadi sahədə əməkdaşlıq istiqamətləri üzrə əldə olunan təcrübəni qeyd edib, birgə səylər nəticəsində bu əlaqələrin ildən-ilə genişlənəcəyinə, əməkdaşlıqda yeni müsbət nəticələrin olacağına əminliyini ifadə edib.

İclasda enerji sahəsində əməkdaşlığın davam etdirilməsi, bərpaolunan enerji sahəsində əməkdaşlıq potensialının araşdırılması, ticarət və investisiya, qeyri-neft mallarının ixracı məsələləri müzakirə olunub. Macarıstan şirkətlərinin Azərbaycanın sənaye parklarında, eləcə də aqroparklarında, startapların Macarıstan və Azərbaycanda keçirilən sərgi, konfrans və forumlarda iştirak imkanları, Macarıstan-Azərbaycan İşgüzar Şurasının yaradılması, iki ölkənin biznes birlikləri arasında əlaqələrin və qarşılıqlı investisiya qoyuluşlarının həcminin genişləndirilməsi və s. məsələlərlə bağlı fikir mübadilələri aparılıb.

Təhsil və elm sahəsində əlaqələrin genişləndirilməsi, eləcə də ikili diplom proqramlarının hazırlanması və tətbiqi, müəllim və tələbə mübadiləsinin, ali təhsil müəssisələri arasında ortaq araşdırmaların təşviqi və s. məsələlər nəzərdən keçirilib. Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində əməkdaşlıq, bu sahələrdə idxal və ixracın mövcud potensiala uyğun artırılması, səhiyyə, mədəniyyət, nəqliyyat sahələri üzrə əməkdaşlıq məsələləri ətraflı müzakirə olunub. Azərbaycanın turizm imkanları haqqında Macarıstanda məlumatlılığın artırılmasının, məlumat turlarının təşkilinin, turizm sahəsində təcrübə mübadiləsinin hər iki ölkə üçün önəmi qeyd edilib. Həmçinin əmək bazarının tənzimlənməsi, məşğulluğa dəstək proqramlarının hazırlanması, sosial xidmətlərin göstərilməsi, tibbi-sosial reabilitasiya, gənclər və idman sahələrində gələcək əməkdaşlıq məsələləri ətrafında da müzakirələr aparılıb.

Hər iki ölkənin müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə aparılan müzakirələrin yekununda həmsədrlər tərəfindən Komissiyanın 7-ci iclasının Protokolu imzalanıb. Sənəddə iki ölkənin qeyd edilən sahələrdə gələcək əməkdaşlıq istiqamətləri ifadə olunur.

*Əvvəli 1-ci səh.*

# Seçici iradəsinin təcəssümü

## İlham ƏLİYEV: "Parlament seçkiləri bir daha onu göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir"

Son parlament seçkilərinə cəmiyyətimizdə olan yüksək diqqət və münasibət də məhz bundan irəli gəlir.

### Beynəlxalq səviyyədə yüksək qiymət

Fevralın 9-da altıncı çağırış Milli Məclisə keçirilən seçkilər Azərbaycanın bəşəri dəyərlərə sadiqliyini bir daha bütün dünyaya nümayiş etdirdi, ölkəmizdə demokratik inkişafın göstəricisi kimi yadda qaldı. Azərbaycan hakimiyyəti seçkilərin demokratik, dünya standartlarına uyğun keçirilməsi üçün siyasi iradə və əzm nümayiş etdirdi. Beynəlxalq təşkilatların, dövlətlərin təmsilçiləri bunu yüksək qiymətləndirdilər. Artıq seçki gününün axşamı və sonrakı gün müşahidəçi qismində ölkəmizə gələn bütün beynəlxalq təşkilatların missiyaları, ayrı-ayrı ölkələrin deputatları seçkinin son dərəcə şəffaf keçirildiyini və ölkəmizin demokratiya yolu ilə inkişaf etməsinin şahidi olduqlarını birmənalı şəkildə bəyan etdilər. Beynəlxalq müşahidəçilərin bəyanat və rəylərində Azərbaycanın seçki sistemi yüksək dəyərləndirildi, respublikamızın dinc və sabit ölkə olduğunu sübut etdiyi diqqətə çatdırıldı.

Parlament seçkilərinin nəticələri nüfuzlu xarici KİV tərəfindən də yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin olduqca ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı. Ona görə də bu mühüm siyasi hadisə bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə demokratik və azad seçkilərdən biri kimi düşdü. Fevralın 12-də Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılışı zamanı ASAN könüllüləri ilə görüşən Prezident İlham Əliyev bu barədə deyib: *"Parlament seçkiləri bir daha onu göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir. Çünki hətta bizə həmişə ən tənqidi mövqedən yanaşan təşkilatlar da seçkilərlə bağlı məruzəsində müsbət meylləri qəbul etməyə məcbur olmuşlar. Pozuntulara gəldikdə, qeyd etmişlər ki, bu prosedur xarakterli pozuntular idi. Yəni bu, hər bir ölkədə var. Heç bir ölkədə tam kamil seçkilər keçirilmir. Amma bu seçkilərdə nə saxtakarlıq, nə ciddi pozuntular olub, nə də ki, seçkilərin legitimliyini, yaxud da nəticələrini şübhə altına alan hər hansı bir pozuntu".*

### Obyektiv araşdırma davam edir

Ümumiyyətlə, heç bir ölkədə ideal seçki keçirmək mümkün deyil. Hətta özünü "demokratiyanın beşiyi" hesab edən cəmiyyətlərdə belə seçkilər zamanı müxtəlif problemlərin baş verməsi, səsvermə günü səslərin düzgün hesablanmaması, namizədlərin bir-birinə qarşı ittihamlarla çıxış etməsi mövcuddur. Buna misal olaraq ABŞ-da keçirilmiş son prezident seçkilərindən sonra Donald Trampın qələbəsinin şübhə ilə qarşılanmasını göstərmək olar.

Bununla yanaşı, istənilən ölkədə seçici siyahılarında çatışmazlıqlar var. Bu səbəbdən seçki kampaniyası ərzində nöqsanların baş verməsindən sığortalanmaq, ümumiyyətlə, mümkün deyil. Azərbaycanda da seçki kampaniyası dövründə və səsvermə günü pozuntuların baş verməsi mümkündür. Lakin əsas odur ki, baş verən nöqsanların hamısı araşdırılır və nəticəsindən asılı olaraq düzgün hüquqi qiymətini alır. 9 fevral seçkilərində ölkə ictimaiyyəti bir daha bunun şahidi oldu. Belə ki, seçkidən sonra bütün müraciətlər qanunvericiliyə uyğun şəkildə obyektiv araşdırılaraq zəruri addımlar atıldı. Seçkilərlə əlaqədar müxtəlif mənbələrdən - sosial şəbəkələrdən seçicilər tərəfindən MSK-ya ünvanlanan müraciətlərin və məlumatların araşdırılmasının nəticəsi olaraq 80 saylı İmişli-Beyləqan, 35 saylı Xətai üçüncü, 74 saylı Lənkəran kənd və 33 saylı Xətai birinci seçki dairələri üzrə Milli Məclisə seçkilər etibarsız sayılıb. Bundan əlavə, MSK tərəfindən bir neçə müraciət ədalətli araşdırılması üçün aidiyyəti üzrə dairə seçki komissiyalarına göndərilib.

Göründüyü kimi, internet resurslarda, sosial şəbəkələrdə yayılmış, eyni zamanda digər mənbələrdən daxil olan bütün şikayət və nöqsanlar ətraflı şəkildə araşdırılır və qanunvericiliyin tələbinə uyğun olaraq lazımi addımlar atılır. MSK-nın qərarları göstərir ki, hüquqi baxımdan baş vermiş bütün hallarla bağlı adekvat tədbirlər görülür və ciddi qanun pozuntuları aşkarlandığı halda kifayət qədər kəskin, ciddi addımlar atılır.

***"Azərbaycan"***

# Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası olub

Fevralın 14-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin iclası keçirilib.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, tədbiri AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev açaraq gündəlikdəki məsələləri diqqətə çatdırıb.

Akademiyanın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın 2019-cu il dekabrın 28-də keçirilmiş ümumi yığıncağında AMEA-nın Nizamnaməsinin yeni redaksiyada qəbul olunduğunu xatırladıb. Akademik İsa Həbibbəyli Nizamnamə üzrə AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin (HİEB) yeni yaradılmış elmi şurasının tərkibindən bəhs edib. Qeyd olunub ki, Rəyasət Heyətinin qərarı ilə HİEB-in elmi şurasının yeni tərkibi müavinlər - akademiklər Teymur Kərimli, Nərgiz Axundova və 14 nəfər tanınmış alimdən ibarət üzvlərlə təsdiqlənib.

Sonra akademik İsa Həbibbəyli "Elm və həyat" jurnalı barədə məlumat verib. İ.Həbibbəyli 1961-ci ildən nəşr olunan jurnalın yarandığı ilk dövrlərdən öz səhifələrində dünyanın və Azərbaycanın görkəmli alimlərinin elmi əsərlərinin nəticələrinin işıqlandırılmasına, bu nəticələrin həyat və cəmiyyətin inkişafı ilə əlaqələndirilməsinə, gənc alimlərin apardığı tədqiqatların nəticələrinin təbliğinə geniş yer ayırmaqla bütün dünyada ənənə halını almış elmin təbliğinə layiqli töhfələr verdiyini nəzərə çatdırıb. Akademik jurnalın yüksəkkeyfiyyətli tərtibatda nəşr olunmasının zəruriliyindən söz açıb.

İclasda "Elm və həyat" jurnalının zəngin ənənələrinin müasir dövrün elmi-kütləvi nəşr tələblərinə uyğun, yüksək poliqrafik tərtibatda davam etdirilməsi məqsədilə redaksiya heyətinin yeni tərkibi təsdiq olunub.

Sonra akademik Fərəməz Maqsudovun 90 illik, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədovun 100 illik, AMEA-nın müxbir üzvü Yevgeni Paxomovun 140 illik və AMEA-nın müxbir üzvü Rəna Məmmədovanın 70 illik yubileylərinin keçirilməsi qərara alınıb.



Tədbirdə Yer Elmləri Bölməsinin (YEB) elmi şurasının tərkibi barədə çıxış edən AMEA-nın birinci vitse-prezidenti, akademik İbrahim Quliyev bölmənin 2020-ci il yanvarın 15-də ümumi yığıncağının keçirildiyini, gizli səsvermə nəticəsində YEB-in elmi şurasının üzvlərinin seçildiyini bildirib. Rəyasət Heyətinin qərarı ilə tərkib təsdiqlənib.

İclasda, həmçinin AMEA-nın Kimya Elmləri Bölməsinin elmi şurasının tərkibi barədə AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev, Biologiya və Tibb Elmləri Bölməsinin elmi şurasının tərkibi ilə bağlı isə AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova çıxış edərək elmi şuraların üzvlüyünə keçirilən seçkilərin nəticələrindən danışıblar.

Qərarla bölmələrin elmi şuralarının yeni tərkibi təsdiqlənib.

Daha sonra Azərbaycan Respublikası "Qırmızı Kitabı"nın III nəşri üzrə iş proqramı haqqında akademik İradə Hüseynova çıxış edib. O, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın III nəşrinin redaksiya heyəti tərəfindən 2020-2023-cü illəri əhatə edən iş proqramının hazırlandığını nəzərə çatdırıb. Kitabın III nəşri üzrə 2020-2023-cü illəri əhatə edən iş proqramı ətrafında müzakirələr aparıldıqdan sonra Rəyasət Heyəti tərəfindən proqram qəbul edilib. Bununla yanaşı, nəşrlə bağlı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə müvafiq məsələlərin birgə müzakirəsinin təşkil edilməsi məqsədəuyğun hesab edilib. "Qırmızı Kitab"ın III nəşri ilə əlaqədar elmi-təşkilati, texniki, maliyyə və s. məsələlərin vaxtında və səmərəli həllini nəzərdə tutan multidissiplinar elmi-tədqiqat proqramının hazırlanması tövsiyə olunub.

"AMEA Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin strukturu və ştat cədvəli barədə növbəti məsələ ilə bağlı AMEA-nın akademik-katibi, müxbir üzv Əminağa Sadıqov çıxış edib. O, məhdud məsuliyyətli cəmiyyətin yeni strukturunun müasir dövrün tələblərinə uyğunlaşdırıldığını və bununla da YT Parkın struktur vahidlərinin işinin daha da təkmilləşdiriləcəyini diqqətə çatdırıb.

Müzakirələrdən sonra Rəyasət Heyətinin qərarı ilə "AMEA Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin struktur və ştat cədvəli təsdiqlənib.

Sonda kadr məsələsinə baxılıb. Akademik İbrahim Quliyev öz xahişi ilə AMEA-nın Neft və Qaz İnstitutunun direktoru vəzifəsindən azad edilib və institutun direktoru vəzifəsinin icrası akademik Fəxrəddin Qədirova həvalə edilib.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fevralın 14-də Abşeron, Astara, İmişli, Tərtər və Zərdab rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, müxtəlif ölkələrdə gərginlik, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunsa da, Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə verilən yüksək qiymət həm iqtidarı daha da ruhlandırır, həm də ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkə çox böyük inkişaf yolu keçib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

2019-cu il həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində dərin islahatlar ili kimi yadda qaldı. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verir. 2019-cu ildə ümumi daxili məhsul 2,2 faiz artıb. Qeyri-neft sektorunda bu artım 3,5 faiz təşkil edib. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz yüksəlib. Kənd təsərrüfatı 7 faiz artıb, bitkiçilikdə bu artım 10 faizdən çox olub. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olub. Qeyri-neft ixracı 14 faiz artıb, valyuta ehtiyatları isə 6,4 milyard dollar çoxalaraq 51 milyard dollara çatıb. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir. İqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Bildirilib ki, 2019-cu ildə Azərbaycanda ən böyük sosial paket reallaşdırıldı. Aparılmış islahatlar çox geniş sosial paketi həyata keçirməyə imkan yaratdı. Həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Azərbaycan sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsip tətbiq etdi və bu sahədə də MDB məkanında birinci oldu. 2019-cu ildə həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması prioritet məsələ olaraq qalır. Sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib. Keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim edilib. Şəhid ailələri və Qarabağ əlilləri üçün bu il daha çox ev tikiləcək. Belə ki, bu kateqoriyadan olan şəxslərə 1500 mənzil verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardımla bağlı 70 faiz artım baş verib, bu proqram 72 min ailəni əhatə edir.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda 2020-ci ilin fevral ayında vətəndaşları qəbul cədvəlinə uyğun olaraq, fevralın 14-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Sabirabadda, nazirin birinci müavini Əli Abdullayev Şirvanda vətəndaşlarla görüşüb.

Nazir Sabirabad və Saatlı, nazirin birinci müavini isə Şirvan sakinlərini qəbul edib.Vətəndaşlar tərəfindən əsasən nəqliyyat, telekommunikasiya, informasiya texnologiyaları və poçt rabitəsi ilə bağlı müraciətlər səsləndirilib.

Müraciətlərin bir qismi yerindəcə həll olunub, digərləri araşdırılması üçün nəzarətə götürülüb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı isə vətəndaşlara müvafiq izahatlar verilib, onlara həmin müraciətlərin aidiyyəti strukturlara göndəriləcəyi bildirilib.

* * *

Gənclər və İdman naziri Azad Rəhimov Abşeron rayonunda 20-yə yaxın vətəndaşı qəbul edib.

Nazirə edilən müraciətlər sırasında "Gənclər evi"nin tikintisi, idman qurğularının avadanlıqla təmin olunması, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi, eyni zamanda, işlə təminatla bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həll edilib. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər isə qeydə alınıb və aidiyyəti üzrə göndəriləcək.

Digər müraciətlər baxılması üçün icraya yönəldilib.

* * *

Energetika nazirinin müavini Samir Vəliyev Gəncə şəhərində, nazir müavini Elnur Soltanov isə Hacıqabulda vətəndaşları qəbul edib.

Energetika Nazirliyindən bildirilib ki, vətəndaşlar tərəfindən səsləndirilən müraciətlər təbii qaz təchizatı, qaz qurğularının istismara qəbulu, elektrik enerjisi təchizatı, elektrik enerjisindən istifadəyə görə yaranmış borc və cərimələrin silinməsi, işlə təminat və digər məsələləri əhatə edib.

Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb. Qəbullarda 10 vətəndaşın müraciətinə baxılıb.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova Ağdaş rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulunu keçirib.

Komitədən verilən məlumata görə, qəbulda Kürdəmir, Göyçay, Ağdaş rayonundan olan sakinlərin ərizə, təklif və müraciətlərinə baxılıb. Görüş çərçivəsində sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, aliment, uşaqlarla ünsiyyət və boşanmalardan yaranan problemlərə, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, qadın və uşaq hüquqlarının müdafiəsi, qadın sahibkarlığının inkişafı, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərə baxılıb.

Qəbulda vətəndaşların komitənin səlahiyyətləri çərçivəsində müraciətləri müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

Qəbul başa çatdıqdan sonra Sədaqət Qəhrəmanova rayonun bir qrup fəal qadını ilə görüşüb. O, ailə, qadın və uşaq siyasəti sahəsində görülən mühüm işlər və layihələr haqqında danışıb. Sonda müzakirələr aparılıb və tədbir iştirakçılarının təklifləri nəzərə alınıb.

* * *

Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifov Gədəbəy rayonunda vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Gədəbəy şəhərində abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapıb. Bəzi müraciətlər üzrə isə Ali Məhkəmənin Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin əksəriyyəti məhkəmələrin fəaliyyəti ilə bağlı olub.

Vətəndaşlar onların əlverişli şəraitdə qəbulundan və müraciətlərinə həssaslıqla yanaşılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***AZƏRTAC***

# Nəsir İmanquliyevin ömür yolundan bəhs edən "Mətbuat fədaisi" kitabının təqdimatı keçirilib

Fevralın 14-də "Azərkitab" Kitab Təbliğatı Mərkəzinin, Azərbaycan Mətbuat Şurası və Azərbaycan Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə görkəmli jurnalist, tanınmış ictimai xadim, pedaqoq Nəsir İmanquliyevin ömür yolundan bəhs edən "Mətbuat fədaisi" kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri "Azərkitab"ın layihə rəhbəri Sabir Həsənov açaraq Nəsir İmanquliyevin Azərbaycan mətbuatında xüsusi rolunu vurğulayıb və onun yaradıcılığı ilə bağlı fikirlərini səsləndirib.

Görkəmli jurnalistin uzun müddət rəhbərlik etdiyi "Bakı" və "Baku" qəzetlərinin nəinki Azərbaycanda, eləcə də keçmiş Sovetlər İttifaqında daim diqqət mərkəzində olduğunu deyən BDU-nun Jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli müəllimi barədə xatirələrini bölüşüb: "Onun tələbələri xoşbəxt idi ki, əllərində Nəsir müəllimin simasında "Bakı" və "Baku" kimi iki gündəlik qəzet laboratoriyası vardı. O, adi müxbirlikdən başlayaraq qəzet redaktorluğuna qədər yüksəlmiş və jurnalistikanın nəzəri problemləri üzərində çalışmışdı. Amma onun şah əsəri yetişdirdiyi, peşə sahibinə çevirdiyi tələbələri idi. Həmin tələbələrin bir çoxu indi yaşlı nəslin, xeyli hissəsi yeni dövrün qələm sahibləridir. Onu dəqiq bilirəm ki, Nəsir müəllimin tələbəsi olmuş jurnalistlər öz peşəsinə heç vaxt etinasız yanaşmayacaqlar. Çünki onların hər birinin qəlbində Nəsir İmanquliyevin klassik ənənələrdən yoğrulmuş müəllim sözü, müəllim həqiqəti var".

Tədbirdə akademik Nizami Cəfərov, Xalq yazıçısı Çingiz Abdullayev, Xalq şairi Nəriman Həsənzadə, tanınmış jurnalist Elçin Şıxlı, Mətbuat Şurasının sədri Əflatun Amaşov və başqaları çıxış edərək Nəsir İmanquliyev yaradıcılığından, onun jurnalistika məktəbindən danışıblar.




Çıxışlarda qeyd edilib ki, Nəsir İmanquliyev Azərbaycan jurnalistika tarixində mövqeyi və rolu olan şəxsiyyət idi. Onun 30 il rəhbərlik etdiyi "Bakı" və "Baku" qəzetləri o dövrün digər mətbu nəşrləri üçün örnək olub.

Məlumat verilib ki, kitabda öz monoqrafiyaları, publisistik yazıları, təşkilatçılıq və redaktorluq məharəti ilə milli mətbuatımızın inkişafına töhfələr verən Əməkdar jurnalist Nəsir İmanquliyevin ömür yolundan bəhs edilir. Vurğulanıb ki, burada toplaşanların böyük əksəriyyəti, sözün həqiqi mənasında, mətbuat fədaisi olan Nəsir müəllimin tələbələri, onu yaxından tanıyan insanlardır. Kitabda onunla bağlı çoxsaylı fikirlər, xatirələr toplanıb. Dövrünün görkəmli şəxsiyyətləri - Üzeyir bəy Hacıbəyli, Niyazi, Qara Qarayev, Rəsul Rza, İmam Mustafayev, Mirzə İbrahimov, İsmayıl Şıxlı, Şirməmməd Hüseynov və başqaları onun haqqında yüksək fikirlər söyləyiblər. Kitaba, həmçinin Nəsir İmanquliyevin ictimai-siyasi, elmi-pedaqoji, təşkilatçılıq və dövlət fəaliyyətini əks etdirən arxiv sənədləri də daxil edilib.

Diqqətə çatdırılıb ki, Nəsir İmanquliyev mətbuatda hələ tələbəlik illərindən çıxış etməyə başlayıb. Neft Texnikumunda oxuduğu vaxtlar "Kommunist", "Yeni yol", "Gənc işçi" qəzetlərində müxtəlif vəzifələrdə çalışıb. 1942-ci ildə siyasi işçi kimi Krım cəbhəsinə göndərilib. Burada "Döyüşən Krım" qəzetində məsul katib və hərbi hissədə tərcüməçi kimi fəaliyyət göstərib. Bir il sonra arxa cəbhəyə göndərilərək "Kommunist" qəzetində məsul katib işləyib və vətənpərvər ruhlu çoxsaylı yazılarla çıxış edib. 1947-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayıb, eyni zamanda, Filologiya fakültəsində təhsilini davam etdirib.

Ustad jurnalistin Azərbaycan mətbuatına gətirdiyi yeniliklər sayəsində azad sözə, fikrə daha çox yer ayrılıb və oxuculara daim ən son xəbərlər çatdırılıb. "Bakı" və "Baku" qəzetlərinin səhifələrində paytaxtda baş verən yeniliklərlə yanaşı, həlli vacib məsələlər də geniş şəkildə işıqlandırılıb. O dövrdə həmin qəzetlərə işə qəbul olunmuş gənclər bu gün jurnalistika sahəsində tanınmış simalardır. Nəsir İmanquliyev həm peşəkar redaktor, həm də təcrübəli müəllim kimi tələbə jurnalistlərin yaradıcılığına geniş imkan yaradırdı. Nəsir müəllimin məktəbi bu gün də davam edir.

Qeyd edək ki, kitab "TuranBank"ın "Dəyərlərimizi qoruyaq və təbliğ edək" layihəsi çərçivəsində nəşr olunub. Kitabın elmi redaktoru professor Cahangir Məmmədli, redaktoru "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru Ağahüseyn Hüseynov, layihənin icraçısı filologiya üzrə fəlsəfə doktoru, dosent Şəraf Cəlilidir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq kəndində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Acarlı, Mərzili, Füzuli rayonunun Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# *Fransız senator:* "Ermənilər azərbaycanlılara qarşı soyqırımı törədiblər"

Fransanın "L'Hebdo Bourseplus" jurnalında bu ölkənin Luar-Atlantik departamentinin senatoru və Senatın xarici əlaqələr, müdafiə və silahlı qüvvələr komitəsinin vitse-prezidenti Joel Geryo ilə müsahibə dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibədə fransız senator Azərbaycanda müşahidə etdiyi parlament seçkilərindən söz açıb, Fransanın Qafqaz ölkələri ilə münasibətinin vacibliyinə toxunub.

Əvvəllər Ermənistanla bağlı hesabat hazırladığını bildirən senator məhz bu hesabatın onu iki ölkə arasındakı münasibətlərdəki çətinlikləri müəyyən etməyə istiqamətləndirdiyini bildirib: "Bu hesabatdan sonra Fransadakı Azərbaycan səfiri ilə əlaqə yaratdım və o, məndən onu dinləməyimi xahiş etdi. Səfiri dinlədikdən sonra iki ölkə arasındakı münasibətlərin mürəkkəbliyinin nə qədər dərin olduğunu anladım. Azərbaycana getməklə bağlı təklifi parlament seçkiləri dövründə qəbul etdim. Bu səfər Azərbaycanın demokratik sistemini yaxından tanımaqla bağlı istəyimə uyğun idi".

J.Geryo Azərbaycanın Fransa üçün strateji əhəmiyyət daşıdığını diqqətə çatdırıb. O, təbii sərvətlərlə zəngin olan Azərbaycana sərmayə yatırmağın əhəmiyyətinə toxunaraq fransız şirkətlərini ölkəmizə dəvət edib.

Fransız senator 1990-cı illərdə Azərbaycanın çox çətin vəziyyətdə olduğunu xatırladaraq qısa müddət ərzində nail olduğu iqtisadi inkişafı vurğulayıb, Bakının Heydər Əliyev Mərkəzi, Xalça Muzeyi, Alov qüllələri kimi müasir memarlıq abidələrindən danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Fransanın roluna toxunan senator bildirib ki, Fransa həmsədr ölkə kimi hər iki tərəfə eyni münasibət göstərməli və münaqişənin həllində fəal olmalıdır.

Senator azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qaldığına toxunaraq Bakıda soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldıldığını vurğulayıb. Bildirib ki, iki ölkə arasındakı münaqişədən danışanda təkcə Dağlıq Qarabağ regionunun deyil, işğal altında olan digər rayonların da adı çəkilməlidir.

Müsahibədə Şarl de Qollun Bakıya səfərindən də bəhs olunub.

# Payız semestri: görülən işlər, qarşıdakı hədəflər

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) cari tədris ilinin payız semestrinin yekunlarına həsr olunmuş növbəti iclasını keçirib. İnstitut rəhbərliyinin, müəllim və əməkdaşların iştirak etdikləri tədbirdə ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və qarşıda duran vəzifələr müzakirə olunub.

Aİİ rektoru Ceyhun Məmmədov bildirib ki, ölkəmizdə bütün sahələrə olduğu kimi, təhsilə, mədəniyyətə, milli-mənəvi dəyərlərin qorunmasına də xüsusi diqqət yetirilir. Rektor vurğulayıb ki, milli-mənəvi dəyərlərimizin qorunmasında və gələcək nəsillərə çatdırılmasında müstəsna xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.

İnstitutun məqsəd və hədəflərindən danışan C.Məmmədov imtahanların gedişatı, yekunları, növbəti semestrlə bağlı hazırlıqların aparılması, dərsliklərin hazırlanması və digər məsələlərdən bəhs edib.

Aİİ-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov dərs vəsaitlərinin yazılması ilə bağlı məsələlərə toxunub. Qeyd edib ki, tədrisin sistemli və şəffaf olması üçün dərsliklərin nəşr edilməsi vacibdir. Dərslik proqrama uyğun yazılmalı, mövzuları tam əhatə etməlidir. Eyni zamanda, sadə və elmi üslubda qələmə alınmalı, məzhəblərüstü yanaşmaya xüsusi diqqət yetirilməlidir.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov tələbələrin şəxsi və elmi inkişafına yönələn işlərin görülməsi ilə bağlı məsələlərə toxunub. Qeyd edilib ki, hər bir müəllim və əməkdaş tələbələrimizə dərslərində, gələcək karyeralarının qurulmasında, dünyagörüşünün zənginləşdirilməsində kömək göstərməli, onların ümumi inkişafına töhfə verməlidir.

Ali təhsil müəssisəsinin İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov imtahanların nəticələri ilə bağlı məlumat verib. Payız semestri zamanı görülən işlərdən, qarşıya çıxan problemlərdən və gələcəkdə həyata keçiriləcək tədbirlərdən bəhs edib.

Kafedra müdirləri Əhməd Niyazov, Elnurə Əzizova, İlkin Əlimuradov tədris prosesi, müəllimlərin fəaliyyəti, kitabların nəşri, elmi məqalələrin çap olunması sahəsində görülən işlər, həmçinin gələcəkdə nəzərdə tutulmuş fəaliyyət istiqamətləri haqqında fikirlərini bölüşüblər.

İnstitutun Tədris şöbəsinin müdiri Zərifə Əliyeva imtahan prosesi zamanı yaranan çatışmazlıqlardan, imtahanların nəticələrindən, operativ qərargaha daxil olan təklif və şikayətlərdən söz açıb.

İclas müzakirələrlə davam etdirilib.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

Əlibaba Məmmədov - 90



# Ustad xanəndə

Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Əlibaba Məmmədovun 90 illiyi yüksək səviyyədə qeyd olunur.

Fevralın 11-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Mərkəzində musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovla görüşüblər. Əlibaba Məmmədovu 90 illik yubileyi münasibətilə təbrik edən dövlət başçısı ona cansağlığı, uzun ömür arzulayıb. Sənətkarın zəngin yaradıcılıq yolundan, musiqi mədəniyyətimizə xidmətlərindən danışan Prezident İlham Əliyev Əlibaba Məmmədovun uzun illərdir ki, xalqımızı öz sənəti ilə sevindirdiyini, həm gözəl ifaçı, xanəndə, həm gözəl bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinin xəzinəsinə böyük töhfələr verdiyini diqqətə çatdırıb: “Siz 100-dən artıq mahnının müəllifisiniz və sizin ifanızda səslənən xalq mahnılarımız, muğamlarımız insanlara xüsusi zövq verir. Xalq sizi ürəkdən sevir, siz həm gözəl sənətkar, həm də gözəl insansınız. Siz Azərbaycan ziyalısını təcəssüm etdirirsiniz. İnsan kimi də sizin çox yüksək keyfiyyətləriniz var. Çox xeyirxah, ədalətli və eyni zamanda həmişə öz biliklərinizi, öz sənətinizi gənc nəsillə bölüşməyə hazır olmusunuz. Sizin bu sahədə müstəsna xidmətləriniz yüksək qiymətləndirilir. Çünki bizim bir çox görkəmli muğam ifaçılarımız sizin məktəbinizin, belə demək mümkündürsə, məzunlarıdır”.

Yubilyar diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib: “Mən xoşbəxt xanəndəyəm. Ona görə xoşbəxt xanəndəyəm ki, mənə həmişə dövlət qayğısı olub, xüsusilə bizim Ulu Öndərimiz mənim bu sənətimə çox yüksək qiymət verib. Bu barədə çox danışa bilərəm. Sizə təşəkkür edirəm, var olun. Mən xoşbəxtəm, özümü xoşbəxt sayıram, 90 il yaşamışam, 70 il xalqımıza fasiləsiz xidmət etmişəm. Bax, bu, mənə bəsdir. Amma bu gün bu ordeni Sizin əlinizdən qəbul etmək mənim üçün böyük şərəfdir. Haqqımda dediyiniz çox sözlərə görə Sizə bir daha ürəkdən təşəkkür edirəm. Çox böyük qiymətdir”.

Ölkə rəhbəri Azərbaycan dövlətinin, xalqın görkəmli sənətkarının fəaliyyətini çox yüksək qiymətləndirdiyini vurğulayıb: “Siz 20 il bundan əvvəl Ulu Öndər Heydər Əliyevin sərəncamına əsasən “Şöhrət” ordeni ilə təltif olunmusunuz. On il bundan əvvəl mənim sərəncamımla “İstiqlal” ordeni ilə təltif edilmisiniz. Bir həftə bundan əvvəl - fevralın 4-də “Şərəf” ordeni ilə təltif olunmusunuz”.

Görüşdə Prezident İlham Əliyev Azərbaycan dövlətinin yüksək ordeni olan “Şərəf” ordenini Əlibaba Məmmədova təqdim edib.

## Könüldə yurd salan sevgi...

Azərbaycanın əsrarəngiz muğamlarına, xalq mahnılarına uşaqlıq illərindən heyran idi. Bu sevgi həyat yolunda onunla addım-addım yol gəlir, böyüyür, könül dünyasına çevrilirdi. Ancaq gənclik illərində neftçi peşəsini seçmişdi Əlibaba Məmmədov. Zəlzələ Aşqabadı dağıtmasaydı, neft mühəndisi olacaqdı. Şübhə etmir ki, neft sahəsində ad-san, vəzifə sahibi olacaq, uğur qazanacaqdı. Musiqi sənətinə gəlişini isə alın yazısı hesab edir. Xanəndə olması, altmış il musiqiyə, xalqa xidməti ilə fəxr edir.

Bakının Maştağa kəndində 1930-cu ilin 5 fevralında dünyaya gəlib. Musiqiyə sevgi ilə böyüyüb. Bunu isə daha çox anasında görüb. Anası dövrünün adət-ənənələrindən kənara çıxıb musiqi təhsili almamışdı. Amma o, arabir çox gözəl səsi ilə zümzümə etdikcə balaca Əlibabanın könlünü ehtizaza gətirirdi. Bir də Bakının və Abşeronun bənzərsiz muğam mühiti ruhunu pərvazlandırırdı. Məlahətli səs, özünəməxsus ifaçılıq qabiliyyəti olan əmisi Güləhməd Məmmədov xanəndə kimi Bakıda məşhur idi. Evinə Cabbar Qaryağdıoğlu, Mütəllim Mütəllimov, Zülfü Adıgözəlov gəlirdi. Əlibaba Məmmədov saatlarla onların söhbətlərini dinləyirdi.

Yeddi yaşında heç kimdən dərs almadan nağara çalmağı öyrəndi. Sonralar tar, qaval, klarnet və pianoda ifa etməyi də özü öyrənəcəkdi... Hərdən oxuyurdu. Ancaq hələ heyranlıqla dinlədiyi xanəndələrin təsirindən uzaqlaşa bilmirdi. Sənətkar özü bu barədə deyib: “...bu, muğam oxumaqdan daha çox başqalarının təqlidi idi, yəni o vaxt əmimə oxşamağa çox çalışırdım”. Bəlkə də elə o zaman musiqiyə, muğamlara duyduğu sevginin izi ilə gedəcək, öz yolunu tapacaqdı... Amma uşaqlıq dünyası kədərə, qayğılara bələndi...

1941-ci ildə Böyük Vətən müharibəsi başladı. Qara xəbər bütün evlərə baş çəkir, hamıya qüssə gətirirdi. Dolanışıq çətinləşir, güzəran ağırlaşırdı. Dünyanın bu dərdli vaxtlarında - 1942-ci ildə atası vəfat etdi. Onda Əlibaba Məmmədovun on iki yaşı vardı. Ailədə üç uşaq idilər. Bacıları ondan da kiçikdilər. Üç uşaq otuz iki yaşlı analarının ümidinə qaldı. Ana övladlarını böyük çətinliklərlə boyabaşa çatdırdı.

Kiçik yaşlarından musiqiyə maraq göstərən Əlibaba Məmmədov anasının çəkdiyi əziyyətləri görür, onun köməyinə çatmaq, qayğılardan xilas etmək istəyirdi. Və neftçi olmaq qərarına gəldi. O vaxtlar bu, çox hörmətli, nüfuzlu peşə sayılır, həm də neftçilər yaxşı məvacib alırdılar.

Bu sahədə təhsil almağa başladı. Neft texnikumunun əlaçı tələbəsi oldu. Təhsilini tamamlayıb neftçi kimi işə başladı. Həmin vaxtlar Türkmənistanda neft yataqlarını işlətməyə başlamışdılar. Gənc neftçi Əlibaba Məmmədovu da təyinatla Türkmənistana işləməyə göndərdilər. Bu da sənətkarın o illərlə bağlı xatirələri: “Ora gedən kimi bizə iş, ev verdilər. Mən əvvəl 6 ay qazmaçı işlədim. Sonra baxdılar ki, istedadım var, məni gecə ustası etdilər. Gecə səhərədək yatmırdım, 22 buruğa nəzarət edirdim. Bir sutka mədənin böyüyü mən olurdum. Hələ o dövrdə mənə maşın da, bir qazax sürücü də vermişdilər. Məni Mebitdağdan mədənə, mədəndən də Mebitdağa aparırdı. O vaxt 18-19 yaşım vardı. Bir az da işləyəndən sonra gördülər ki, yaxşı işləyə bilirəm, adımı “malenkiy master” qoymuşdular. Direktorumuz bakılı rus idi. Dedi ki, istedadın çoxdur, səni Aşqabada göndəririk. O vaxt 1400 manat maaş alırdım. Dedilər ki, orta əməkhaqqı, yəni 800 manatla dörd il oxuyandan sonra bizim mədəndə mühəndis işləyəcəksən. Razılıq verdim. Mən yetim böyümüşəm, neftçi kimi aldığım 1400 manat maaşın 500 manatını Bakıya, anama göndərirdim”.

Razılıq verməzdən qabaq Bakıya, anasına məktub yazmışdı. Onu Aşqabada oxumağa göndərmək istədiklərini, ancaq ora gedərsə, evə pul yollamağa imkanı olmayacağını bildirdi. Anası cavabında yazdı ki, bizim vəziyyətimiz yaxşıdır, sən təhsilini davam etdir.

1948-ci ilin axırında Aşqabadda zəlzələ baş verdi. Zəlzələnin təsiri onun olduğu Mebitdağa gedib çıxmadı. Ancaq Aşqabad dağılandan sonra Əlibaba Məmmədovun neft mühəndisiliyi oxumaq arzusu yarımçıq qaldı. Vətəni, doğmaları üçün çox darıxmağa başladı. Amma hələ bir il də işləməli idi. Həm də ali təhsil almağa getmək üçün razılıq vermiş, hətta müvafiq sənəd imzalamışdı. O zaman Əlibaba Məmmədovun köməyinə rəisi çatdı. Onu əvvəlcə növbə ustası təyin edən, sonra mühəndis olmaq üçün təhsilini davam etdirməyi məsləhət görən rəis gəncin Bakıya qayıtmaq arzusuna qarşı çıxmadı. Əlibaba Məmmədovun xatirələrindən: “Xoşbəxtlikdən bizim rəis bakılı idi, imzaladığım ərizəyə baxmayaraq mənə icazə verdi”.

## Taleyin hökmü...

Doğma yurda, evinə döndü. Taleyin hökmü onu planlarından kənara çıxarmışdı. Əlibaba Məmmədov uzun illər sonra düşünür ki, görünür, Tanrı özü məni sonrakı hadisələrə hazırlaşdırırmış...

Bir gün 26-lar adına mədəniyyət sarayının qarşısından keçəndə diqqətini bir elan cəlb edir. Gənc İstedadlar müsabiqəsi keçiriləcəyini belə öyrənir. İştirak etmək qərarına gəlir.

Müsabiqədə münsiflər heyətinin sədri Zülfü Adıgözəlov ondan nə oxuyacağını soruşanda “Çahargah” deyir. Muğamlarımızın gözəl bilicisi olan sənətkar soruşur: “Çahargah” ağır muğamdır”. O isə söz altında qalmır: “Ağır olan sizin qarşınızda oxumaqdır”. Gəncin sözləri ustad xanəndənin ürəyinə yatır. On doqquz yaşlı Əlibaba Məmmədova söyləyir ki, səni Filarmoniyaya götürəcəyik.

1949-cu ilin oktyabrında Zülfü Adıgözəlovun xeyir-duası ilə onu Azərbaycan Dövlət Filarmoniyasına solist kimi işə qəbul etdilər. Filarmoniyada təsərrüfat hesabı əsasında çalışır. Səhnəyə hər çıxışı üçün pul verilirdi. O günləri indi də qürurla yada salır: “Cəmi doqquz dəqiqə səhnədə qalsam da, Şövkət Ələkbərovanın xoş sözlərinə layiq oldum. Bundan sonra Filarmoniyanın ştatına salındım, burada Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Zülfü Adıgözəlov, Fatma Mehrəliyeva, Rübabə Muradova, Əbülfət Əliyev kimi şöhrətli xanəndələrlə bir yerdə çıxış etmək asan deyildi, amma böyük ustalıq məktəbi idi.

Oradakı müəllimlərim Seyid Şuşinski, Əhməd Bakıxanov, Adil Gəray olmasa, müasir muğam məktəbi də olmazdı. Onlara çox şey borcluyuq”.

Asəf Zeynallı adına musiqi məktəbinə daxil olmasını başqa bir ustadın - Seyid Şuşinskinin adı ilə bağlayır: “Seyid Şuşinski musiqi məktəbinə 1953-cü ildə gəldi. Mən də Seyid Şuşinskidən dərs almaq üçün gəldim. Mən muğamları bilirdim, amma dərinini bilmirdim. Seyid Şuşinskiyə qədər elə başa düşürdüm ki, mən, doğurdan, muğamı yaxşı bilirəm. Mənim əmim xanəndə olub. Seyid Şuşinskinin sinfində bir ay oturandan sonra gördüm ki, mən çox şeyləri bilmirəm. Amma öyrəndim”.

1958-ci illərdə Asəf Zeynallı adına musiqi məktəbində təhsilini başa vurdu. 1959-cu ildə Bülbül, Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Hacı Məmmədov kimi sənətkarlarla Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etdi. İfa etdiyi “Bayatı Kürd” muğamı ilə tamaşaçıların alqışlarını qazandı. Həmin il ilk mükafatını - fəxri fərman aldı.

Azərbaycan Dövlət Filarmoniyasında 1968-ci ildə Maestro Niyazinin təşəbbüsü ilə xalq çalğı alətləri ansamblı yaradıldı. Ansambla “Humayun” adı verildi. Əlibaba Məmmədov “Humayun”un bədii rəhbəri və ilk solisti oldu. Sonralar Məmmədbağır Bağırzadə, Novruz Feyzullayev, Səxavət Məmmədov, Zümrüd Məmmədova və başqaları da ansamblın sevilən ifaçıları kimi tanındılar. Onlar “Humayun”la müttəfiq respublikaların əksəriyyətində qastrol səfərlərində oldular. Əlibaba Məmmədovun böyük sevgi ilə yaşatdığı bu ansambl otuz ildən çox Azərbaycan musiqi sənətinə xidmət etdi.

O, 1978-1988-ci illərdə “Azkonsert” Birliyinin solisti kimi fəaliyyətini davam etdirdi. O zaman Azərbaycanın məşhur xanəndələrindən öyrənib muğam sənətində öz yolunu seçən Əlibaba Məmmədovun səsinin, ifasının heyranları az deyildi.

## “Xalq mahnı”larının müəllifi

Gənc yaşlarından mahnılar yazdı. Məhəmməd Füzuli, Əliağa Vahid, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə kimi şairlərin çox sevilən şeirlərinə musiqilər bəstələdi. “Yaşa məhəbbətim, yaşa ürəyim”, “Gəl bizə, yar”, “Bir dənəsən”, “Ağarma saçım, ağarma” və başqa mahnılarını həm özü, həm də Rübabə Muradova, Zeynəb Xanlarova və digər tanınmış müğənnilər ifa etdilər. Ancaq sovet dövründə müğənninin, xanəndənin bəstəkarlıq etməsi qəbul olunmurdu. İstedadlarını etiraf etmir, onları “həvəskar bəstəkar” adlandırırdılar. Sevilən, dillərə düşən mahnılarını isə “xalq mahnısı” kimi təqdim edirdilər. Belə haqsızlıqları, ögey münasibəti Əlibaba Məmmədov çox görsə də, ruhdan düşmədi. Hər zaman: “Mən özümü bəstəkar saymıram, heç vaxt belə iddiam olmayıb”, - dedi. Ürəyinin səsini dinlədi. Bəyəndiyi şeirlərə musiqi yazdı. Əlibaba Məmmədov yüzdən çox mahnı və təsnifin müəllifidir. Onların uzun illərdir oxunduğuna, dinləndiyinə fərəhlənir. Mahnılarının, təsniflərinin bundan sonra da ifa olunacağına, seviləcəyinə inanır.

Böyük səhnələrdə çıxış edən görkəmli xanəndələrin əksəriyyəti toylara gedirdi. Əlibaba Məmmədov da otuz ildən çox toylarda oxudu. Onu Azərbaycanın bütün bölgələrinə, hətta ölkəmizdən kənara da şənlik məclislərinə dəvət edirdilər. O vaxtlar hər müğənniyə, xanəndəyə belə dəvətlər gəlmirdi. Səbəbini Əlibaba Məmmədov belə izah edir: “Vaxtilə toya yaxşı səsə malik, mikrofonsuz oxuyan müğənni dəvət etmək hünər sayılırdı. O vaxtlar toya həm də muğam dinləmək üçün gələrdilər. Bizim oxuduğumuz məclislərdə isə iynə atsan yerə düşməzdi, qonaqlar bizi saatlarla dinləyirdilər”.

## Tələbələrin çox sevdiyi, fəxr etdiyi müəllim

“Müəllimlik şərəfli və eyni zamanda məsuliyyətli peşədir. Müəllim öyrədir və eyni zamanda öyrənir”, bunlar Əlibaba Məmmədovun sözləridir. O, özü də əlli ildən çox müəllim işlədi. “Muğam xalq musiqilərimizin, istər opera, istər operetta, istər simfonik musiqi - hamısının kökündür” deyən sənətkar muğam sənəti barədə öz müəllimlərindən öyrəndiklərini böyük həvəslə tələbələrinə öyrətdi.

Pedaqoji fəaliyyətə özünə hər zaman ustad bildiyi sənətkarlardan birinin, tarzən Əhmədxan Bakıxanovun tövsiyəsi ilə məzunu olduğu məktəbdə başladı. Asəf Zeynallı adına musiqi məktəbində muğam sənətindən dərs dedi. Sonralar həm də Bülbül adına Bakı Musiqi Məktəbində, Azərbaycan Milli Konservatoriyasında gənc nəslə muğam sənətini öyrətdi. Tələbələrinin çox sevdiyi, fəxr etdiyi müəllim olmağı bacardı.

Uzun illər böyük məharətlə ifa etdiyi “Bayatı-Şiraz”, “Dəşti”, “Rahab”, “Çahargah”, “Şur” kimi muğamlar, onlarla xalq mühnısı və təsnif lentə alınaraq radionun “Qızıl fond”una daxil edilib.

O, ömrünün ilk çağlarında Azərbaycan muğamlarının ecazkar aləminə düşdü. Və bu vurğunluq, bu heyranlıq bir anlıq da olsa, könlünü tərk etmədi. Muğamlarımızdan hər zaman belə fəxrlə, məhəbbətlə danışır Əlibaba Məmmədov: “Muğam bizə Allah tərəfindən bəxş edilib və mən ona xidmət etməkdən əsla usanmaram. Bütün ömrüm muğamla bağlıdır. Bu xalq sənətinin dirçəlişinə sevinməyə bilmirəm. ...Muğamı qəlbimizdən çıxarmaq olmaz, o, bizim qanımızdadır. O, bizim içimizdə olub, var və olacaq. Azərbaycan muğamı qədər safı, güclüsü, qüdrətlisi heç yerdə yoxdur. Yeddi əsas muğam olan “Humayun”, “Rast”, “Şur”, “Çahargah”, “Segah Zəbul”, “Şüştər”, “Bayatı-Şiraz” və muğam şöbələri xalqımızın misilsiz sərvətidir, zəngin irsidir. Muğamla biz ən dərin duyğularımızı, məhrəm hisslərimizi, ovqatımızın ən incə məqamlarını, fəlsəfi fikirlərimizi ifadə edə bilirik”.

Xalq mahnılarının, muğam ifaçılığının inkişafında və təbliğində Əlibaba Məmmədovun xidmətləri öz layiqli dəyərini alıb. Musiqisevərlərin sevgisini qazanan sənətkar 1963-cü ildə Əməkdar artist, 1989-cu ildə isə Xalq artisti fəxri adlarını alıb. O, ömrünün 90-cı ilində də xalqın sevgisi, dövlət qayğısı ilə əhatələnib.

**Zöhrə FƏRƏCOVA,**
**“Azərbaycan”**

# Koronavirus Azərbaycana gələ bilərmi?

## Mütəxəssislər, dövlət qurumları narahatlığa əsas görmür

Çində koronavirusun yeni növünə (COVID-2019) yoluxanların ümumi sayı artaraq 63918 nəfərə çatıb. Bu barədə ölkənin Gigiyena və Səhiyyə Məsələləri üzrə Dövlət Komitəsi məlumat yayıb. Bildirilir ki, yeni sətəlcəmdən ölənlərin sayı təkcə Çində 1488 nəfərə çatıb. Virusa yoluxanlardan 6982 nəfəri sağalaraq xəstəxanalardan evə buraxılıb.

Bütün dünyada olduğu kimi, xəstəliyin sürətlə artması Azərbaycanda da əhali arasında narahatlıqlar yaradır. Bəs görəsən yayılan dəhşətli xəstəliklə bağlı ölkəmizdə vəziyyət nə yerdədir? Koronavirus Azərbaycana gələ bilərmi? Bunun qarşısını almaq üçün aidiyyəti qurumlar hansı tədbirlər həyata keçirirlər?

### Hazırda Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitdir

Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva məlumat verir ki, hazırda Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitdir. İndiyə qədər ölkəmizdə koronavirus və ya koronavirusa şübhəli xəstələr aşkar edilməyib. Səhiyyə Nazirliyinin bu xəstəliklə bağlı əmrinə əsasən ölkədə buna qarşı profilaktik tədbirlər həyata keçirilir: “Bunun üçün xəstəxanalarda xüsusi palatalar ayrılıb, dezinfeksiya rejiminə, havadamcı infeksiyalarına qarşı bütün tələblərə riayət olunur. Tibb müəssisələri lazımi dezinfeksiyaedici, dərman preparatları, maskalar və digər vasitələrlə kifayət qədər təmin ediliblər”. A.Əliyeva bildirir ki, Azərbaycanın sərhəd keçid məntəqələrindən keçib ölkəmizə gələn Çin vətəndaşlarının da hamısı müayinədən keçirilir: “Termovizorlar vasitəsilə onlarda hər hansı xəstəliyin olması təyin edilir. Həmçinin vəziyyətin gərgin olduğu şəhərdən gələnlər xəstəxanada observasiya olunur və 14 gün müddətində təcrid edilərək nəzarətə götürülür. Çinin digər şəhərlərindən ölkəmizə gələn Çin vətəndaşları və ya Azərbaycandan müxtəlif səbəblərdən orada olan, yaşayan və ölkəmizə qayıdan vətəndaşlar sağlamdırlarsa, heç bir xəstə ilə təmasda olmayıblarsa, onlar yerlərdə ərazi tibb müəssisələri tərəfindən yenə də bu xəstəliyin inkubasiya dövrü ərzində 14 gün ərzində müşahidəyə götürülürlər. Amma bu günə qədər onlar arasında heç bir xəstəlik, hətta şübhəli xəstə belə aşkar edilməyib”.

### Koronavirus olmasa da...

“Bu xəstəliyin klinikası, əlamətləri respirator virus infeksiyaları və qripin əlamətlərinə oxşar simptomlardır”, söyləyən direktor müavini qeyd edir ki, mövsümi olaraq respirator virus və qrip xəstəliklərinə qarşı da Azərbaycanda profilaktik tədbirlər həyata keçirilir: “Bizdə koronavirus olmasa da, virus infeksiyaları var, tək-tək hallarda mövsümi qrip halları da qeydə alınır ki, bunlardan da qorunmaq mütləqdir. İlk növbədə bayırdan gələndə əllər sabunla yuyulmalı, spirt tərkibli maddələrdən istifadə edilməlidir. Çirkli əllərlə gözə, buruna, ağıza toxunmaq olmaz. Respirator virus infeksiyalı xəstələrlə birbaşa təmasdan çəkinmək, qidalanmanın təhlükəsizliyinə diqqət yetirmək, insanların sıx olduğu yerlərdən uzaq durmaq lazımdır. Özündə respirator virus infeksiyası əlamətləri hiss edənlər evdə qalmalı, yataq rejiminə keçməli və mütləq həkimə müraciət etməlidirlər. Onlar maskadan istifadə edərək evdə olan digər şəxslərin yoluxmasının qarşısını almalıdırlar. Qaldığı otağın havasını mütəmadi dəyişdirməlidirlər”.

### Xəstəlik alovlanan ərazidən gələn 12 nəfərin səhhətində heç bir problem aşkarlanmayıb...

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidmətlərinin yaydığı məlumatda bildirilir ki, Kliniki Tibbi Mərkəzin məlumatına əsasən, Yoluxucu xəstəliklər şöbəsində qalan 1 nəfər evinə buraxılıb.

Xəstəlik alovlanan ərazidən gələn 12 nəfər isə xüsusi ayrılmış tibb müəssisəsində saxlanılır. Həmin tibb müəssisəsindən Səhiyyə Nazirliyinə verilən məlumata görə, Çinin Uhan şəhərindən yanvarın 29-u çıxan 6 nəfərin karantini ötən gün bitib. Onların klinik vəziyyətlərində heç bir problem aşkarlanmayıb. Xüsusi ayrılmış tibb müəssisəsində saxlanılan digər 6 nəfərin karantin müddəti fevral ayının 14-ü bitir, onların səhhətində də hər hansı bir problem aşkarlanmayıb. Karantin müddətinin sonunda qalan 6 nəfər də evə buraxılacaq.

### Gömrük-sərhəd buraxılış məntəqələrində müvafiq işlər görülür

Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata əsasən, insanlar üçün qlobal təhlükə törədən yoluxucu xəstəliklər, xüsusilə, son günlər Çin Xalq Respublikasının Hubey əyalətinin Uhan şəhərində naməlum etiologiyalı sətəlcəm xəstəliyinin aşkar edilməsi ilə əlaqədar gömrük-sərhəd buraxılış məntəqələrində gömrük orqanları tərəfindən müvafiq işlər aparılır.

Bununla əlaqədar, öskürək, halsızlıq, yüksək hərarət, yuxarı tənəffüs yollarının katarı və s. simptomlarla özünü büruzə verən fiziki şəxslərin müəyyənləşdirilməsi üçün məsafədən insan bədəninin hərarətinin ölçülməsində istifadə olunan cihazlar (termovizorlar) vasitəsilə termometriya, tibbi sorğu, vizual müayinə və digər diaqnostik üsullarla tibbi-sanitariya yoxlaması gücləndirilmiş rejimdə həyata keçirilir.

Xəstə və xəstəliyə şübhəli şəxslər aşkar edilərsə, onların müvəqqəti təcrid olunması üçün ayrılan və zəruri əşyalarla təmin edilən yerlərdə müayinəsinə lazımi şərait yaradılıb.

Həmçinin nəqliyyat vasitələri üzərində dezinfeksiya tədbirlərinin aparılması da həyata keçirilir.

Eyni zamanda fiziki şəxslərin hava nəqliyyatı vasitəsilə ölkəyə gəlişi zamanı, Mülki Aviasiya Təşkilatı tərəfindən qəbul edilmiş və ekipajın müvafiq üzvləri tərəfindən imzalanmış hava gəmisinin “baş bəyannaməsi” sənədinin tibbi-sanitariya hissəsinə uyğun olaraq, müvafiq tibbi-sanitariya nəzarəti məsələlərinə dair məlumatların gömrük orqanına təqdim olunması tələb edilir.

Bundan başqa, Səhiyyə Nazirliyi və digər müvafiq dövlət qurumları, habelə şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzlərinin rəhbərləri ilə məlumat mübadiləsi və digər zəruri qarşılıqlı fəaliyyətin təşkili üçün müəyyən edilən mütəmadi əlaqə mexanizmlərinə uyğun olaraq müvafiq işlər həyata keçirilir.

### Koronavirusun vəhşi heyvanlar vasitəsilə yayılması riski ölkəmiz üçün də mövcuddur

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyinin (AQTA) birgə yaydığı məlumatda isə bildirilir ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OIE) məlumatlarına əsasən, COVID-2019 koronavirus epidemiyasının əsas səbəbkarı isti və soyuqqanlı heyvanlar, o cümlədən vəhşi heyvanlar və dəniz məhsulları hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatı (WHO) OIE ilə birlikdə virusun (COVID-2019) heyvan mənşəli olduğu qənaətinə gəlib. Əldə olunan təcrübəyə əsasən, COVID-2019 koronavirusunun vəhşi heyvanlar vasitəsilə yayılması riski ölkəmiz üçün də mövcuddur. Aparılan müşahidələr onu göstərir ki, hazırda bir sıra ictimai-iaşə obyektlərində, istirahət mərkəzlərində və digər ictimai yerlərdə vəhşi heyvanların qanunsuz olaraq saxlanılması, onlardan əyləncə məqsədilə istifadə olunması hallarına rast gəlinir. Bu kimi hallar qanunvericiliyin tələblərini pozmaqla yanaşı, koronavirus, quduzluq və s. kimi virus xəstəliklərinin yayılmasına da münbit şərait yaradır.

ETSN və AQTA həmin şəxslərə xəbərdarlıq edərək bildirir ki, ictimai-iaşə obyektləri, istirahət mərkəzləri və digər ictimai yerlərdə vəhşi heyvanların qanunsuz olaraq saxlanılması qətiyyətlə yolverilməzdir.

Qurumlar vətəndaşları epizootik vəziyyətlə bağlı diqqətli olmağa, eyni zamanda xəstəlik əlamətləri müşahidə edilən və ya tələf olan vəhşi heyvanlarla (quşlarla) bağlı şübhəli hallar müşahidə etdikdə agentliyin regional bölmələrinə, yaxud “1003-Çağrı Mərkəzi”nə, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 168 saylı “Qaynar Xətti”nə məlumat verməyə çağırır.

Təhsil Nazirliyindən verilən məlumatda bildirilir ki, nazirlik tərəfindən müvafiq dövlət qurumları ilə birlikdə əhali arasında koronavirus xəstəliyinin profilaktikası məqsədilə bütün təhsil müəssisələrində sanitariya maarifləndirmə işləri həyata keçirilir.

**Yasəmən MUSAYEVA,**
**“Azərbaycan”**



# Olimpiya və Paralimpiya yığma komandalarımız “Tokio-2020”də eyni forma ilə çıxış edəcəklər






Fevralın 14-də Azərbaycan Milli Olimpiya və Milli Paralimpiya komitələri arasında “Tokio-2020” Olimpiya və Paralimpiya oyunları çərçivəsində əməkdaşlığa dair memorandum imzalanıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Paralimpiya Komitəsinin (MPK) prezidenti İlqar Rəhimov, MOK-un baş katibi Ağacan Əbiyev, baş katibin müavini Azər Əliyev, olimpiya çempionları və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Memorandumu MOK-un vitse-prezidenti Ç.Hüseynzadə və MPK-nın prezidenti İlqar Rəhimov imzalayıblar.

Hər iki qurum arasında sıx əməkdaşlığın uzun illərdir mövcud olduğunu diqqətə çatdıran MOK-un vitse-prezidenti deyib: “Artıq əməkdaşlığımızı rəsmiləşdirmək qərarına gəldik. Bu əməkdaşlıq ölkəmizdə idmanın inkişafına və kütləviliyinin artırılmasına xidmət edəcək. Olimpiya və Paralimpiya yığma komandalarımız “Tokio-2020”də eyni forma ilə çıxış edəcəklər”.

İdmançılarımızın sonuncu - “Rio-2016” Olimpiya Oyunlarında 18 medal qazandıqlarını xatırladan Ç.Hüseynzadə bildirib ki, bu göstəricini təkrarlamaq çətin olacaq: Əsas hədəfi medalların əyarına yönəltmək istəyirik. “Rio-2016”da komandamız bir qızıl medal qazanmışdı. Ümid edirəm ki, Tokioda qızıl medalların sayı daha çox olacaq”.

Memorandumu tarixi hadisə adlandıran MPK-nın prezidenti İ.Rəhimov idmanın ölkəmizdə prioritet sahələrdən olduğunu deyib: “Ümid edirəm ki, idmançılarımız Tokioda keçiriləcək Yay Olimpiya və Paralimpiya oyunlarında da bizi sevindirəcək və himnimizi səsləndirəcəklər. Ölkəmizdə olimpiyaçılarla paralimpiyaçılar arasında heç bir fərq qoyulmur. Hər iki komanda ölkəmizdə idmanın inkişafına xidmət edir. Hazırda paralimpiyaçılarımız “Tokio-2020”yə 7 lisenziya qazanıblar. Paralimpiya Oyunlarında 30-32 idmançı ilə təmsil olunacağımızı proqnozlaşdırırıq. Bu göstərici “Rio-2016” Yay Paralimpiya Oyunlarındakından çoxdur. Braziliyada 24 paralimpiyaçımız medallar uğrunda mübarizə aparmışdı”.

Sonda jurnalistlərin suallları cavablandırılıb.

Azərbaycanın Olimpiya və Paralimpiya tarixində ilk dəfə baş tutan bu rəsmi əməkdaşlıq “Tokio-2020”nin, həmçinin Olimpiadada və Paralimpiadada ölkəmizi təmsil edəcək komandaların birgə təbliğinə və təşviqinə xidmət edir. Memoranduma əsasən, marketinq, sosial media, könüllülük xidməti, komandalar üçün vahid idman geyim dəstinin hazırlanması və digər sahələrdə əməkdaşlıq edilməsi nəzərdə tutulur.

Oyunların və komandaların təbliği və təşviqində aparıcı rol MOK-a məxsus olacaq. Bu işdə “Rio-2016” Yay Olimpiya Oyunlarında əldə olunan uğurlu təcrübənin tətbiq edilməsi planlaşdırılır. Hətta “Tokio-2020” Olimpiya Oyunları üçün xüsusi strategiya hazırlanıb. Həmin strategiya “Minsk-2019” II Avropa Oyunlarında uğurla sınaqdan keçirilib.

# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb





NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi “Qətiyyətli Dəstək” missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Qeyd edək ki, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb. Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti Əfqanıstandakı missiyada iştirak edir.

## Türkiyə İdlibə xüsüsi təyinatlılar və radioelektron mübarizə texnikası göndərir



Türkiyə Suriyanın İdlib əyalətində, gərginliyin azaldılması zonasında müşahidə məntəqələrini möhkəmlətməkdə davam edir. Suriyanın cənub-qərbinə hərbi texnika və xüsusi təyinatlı dəstələr göndərilir.

Dünən Türkiyənin müxtəlif hərbi hissələrindən xüsusi təyinatlıları daşıyan növbəti yük maşınları İdlibə yola düşmüşdür. Həmçinin radioelektron mübarizə kompleksləri və zirehli tibbi maşınlar müşahidə məntəqələri rayonlarına yola düşmüşdür.

Astana sazişlərinə uyğun olaraq, Türkiyə atəşkəs rejiminin monitorinqini həyata keçirmək məqsədilə İdlibdə 12 müşahidə məntəqəsi yaratmışdır.

## ABŞ Rusiyaya qarşı sanksiyalar tətbiq etdi

ABŞ hökuməti Rusiya Federasiyasından olan üç təşkilata qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə Dövlət Departamenti məlumat vermişdir.

Məhdudlaşdırıcı tədbirlər kütləvi qırğın silahlarının yayılmaması haqqında qanun çərçivəsində tətbiq olunmuşdur. “Qara siyahı”ya Tula şəhərindəki Şipunov adına “Cihazqayırma Konstruktor Bürosu”, “Elmi-Tədqiqat Maşınqayırma Birliyi” və “Kumertau Aviasiya İstehsalat Müəssisəsi” ASC daxil edilmişdir.

# Beynəlxalq aləm

## Dünya əhalisinin üçdəikisi koronavirusa yoluxa bilər



Hadisələrin əlverişsiz inkişafı nəticəsində dünya əhalisinin üçdəikisi yeni tipli koronavirusa yoluxa bilər. Bu barədə Dünya Səhiyyə Təşkilatı (DST) yanında müşavir Ayru Loncini məlumat vermişdir.

Loncininin dediyinə görə, Çin hökumətinin həyata keçirdiyi karantin tədbirləri virusun yayılmasını dayandıra bilər, lakin bu addım virus Çinin müxtəlif regionlarına və digər ölkələrə yayıldıqdan sonra atılmışdır. O bildirmişdir ki, adi şəraitdə koronavirusa yoluxmuş hər bir xəstə 2-3 nəfəri yoluxdura bilər. Ekspertin hesablamalarına görə, bu göstərici iki dəfə azaldılsa belə, Yer əhalisinin üçdəbir hissəsi xəstəliyə yoluxacaq. Xatırladaq ki, bundan əvvəl DST koronavirusa qarşı peyvəndin 2021-ci ildə hazır olacağını bildirmişdir.

Bu arada Çində yeni tipli koronavirusdan ölənlərin sayı 1488 nəfərə çatmışdır. Xəstəliyə yoluxanların ümumi sayı 64 min nəfərə yaxındır.

## Tramp Meksika ilə sərhəddə fövqəladə vəziyyət rejimini uzatdı



ABŞ Prezidenti Donald Tramp Konqresi fevralın 15-dən Meksika ilə sərhəddə fövqəladə vəziyyət rejiminin bir il müddətinə uzadılması barədə məlumatlandırmışdır. Bu barədə Ağ evin mətbuat xidməti məlumat vermişdir.

Prezidentin müraciətində deyilir: “Cənub sərhədində davam edən humanitar böhran və təhlükəsizliklə bağlı vəziyyət milli təhlükəsizliyimizə təhdid yaratmaqda davam edir. İcra hakimiyyəti bu böhranın qarşısını almaq üçün addımlar atmışdır. Humanitar böhranın tənzimlənməsi, qeyri-leqal miqrasiyaya və narkotiklərin yayılmasına son qoymaq üçün növbəti addımlar atmaq lazımdır. Ona görə mən cənub sərhədində fövqəladə vəziyyət rejimini uzatmaq qərarına gəldim. Fövqəladə vəziyyət haqqında qanunun 202-ci maddəsinə uyğun olaraq, fövqəladə vəziyyət rejimini bir il müddətinə uzadıram”.

Xatırladaq ki, ötən il ABŞ Konqresinin Senatı və Nümayəndələr Palatası müvafiq rejimi ləğv etmək istəmiş, lakin Prezidentin vetosunu aşa bilməmişdir.

## ABŞ Ərəbistan dənizində İran gəmisini saxladı



ABŞ hərbi dəniz qüvvələrinin gəmisi Ərəbistan dənizində göyərtəsində İrana məxsus tank və hava hücumu əleyhinə raketlər olan gəmini saxlamışdır. Bu barədə ABŞ Mərkəz Komandanlığı məlumat vermişdir.

Müsadirə edilmiş silahlar arasında 150 ədəd tank əleyhinə idarəolunan “Dəhlaviyə” raketi və “yer-hava” sinfindən olan 3 raket var. Bundan əlavə, göyərtədə İran istehsalı olan teploviziya silahları nişangahları, pilotsuz təyyarələr və gəmilər üçün komponentlər, habelə digər silah-sursat aşkarlanmışdır.

## Əfqanıstanda 21 nəfər qar uçqununun qurbanı oldu



Əfqanıstanın Daykundi əyalətində baş vermiş qar uçqunu nəticəsində 21 nəfər həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Təbii Fəlakətlərlə Mübarizə İdarəsinin rəisi Əsədulla Sərvərinin dediyinə görə, artıq bir neçə gündür əyalətin ərazisində qar yağır və bir çox rayonlara gedən yollar bağlanıb. Son günlər burada 31 qar uçqunu baş vermiş, 21 nəfər ölmüş, 10 nəfər yaralanmışdır. Bundan əlavə, 50 ev dağılmış, onlarca heyvan tələf olmuşdur.

Sərvəri, həmçinin məlumat vermişdir ki, qar altında qalmış 7 nəfəri xilas etmək üçün axtarış-xilasetmə işləri davam edir.

# “Azərişıq” ASC-də 2019-cu ilin yekunlarına dair toplantı keçirilib

“Azərişıq” ASC-nin rəhbəri Vüqar Əhmədovun sədrliyi ilə 2019-cu ilin yekunlarına dair departament direktorları, idarə və şöbə rəisləri, habelə Regional Enerji Təchizatı və Satışı İdarələri rəislərinin iştirakı ilə toplantı keçirilib. Bu barədə cəmiyyətin mətbuat xidmətindən məlumat verilib.





Toplantıda 2019-cu ilin iqtisadi yekunları ilə bərabər 2020-ci ildə görüləcək işlər və qarşıda duran vəzifələr müzakirə olunub. Toplantıda çıxış edən ASC sədri Vüqar Əhmədov öncə son 5 il ərzində görülən quruculuq işlərindən danışıb.

10 fevral 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamla “Bakıelektrikşəbəkə” ASC-nin bazasında yeni bir qurum - “Azərişıq” ASC yaradıldığını vurğulayan Vüqar Əhmədov “Azərişıq” ASC-nin yaranmasının bir zərurət olduğunu - bütün bölgələrin elektrik enerjisi ilə təchizatını paytaxt Bakının səviyyəsinə çatdırmaq, istehlakçılara yüksək keyfiyyətlə xidmət göstərmək missiyasını qısa zamanda həyata keçirməyin o zaman vacib və təxirəsalınmaz bir məsələ olduğunu, ölkə rəhbəri tərəfindən qarşıya qoyulan vəzifənin kifayət qədər böyük məsuliyyət tələb etdiyini diqqətə çatdırdı.

“Azərişıq” ASC yaradıldıqdan dərhal sonra rəhbərlik və qurumun mütəxəssisləri mövcud vəziyyəti öyrənərək, fəaliyyət planını tərtib edərək genişmiqyaslı təmir, yenidənqurma və tikinti işlərinə başlanıldı. İcrasına başlanılmış proqramın I hissəsini elektrik şəbəkələrinin reabilitasiyasını əhatə edən tədbirlər təşkil edirdi ki, bu da regionlardakı istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunmasına, kənd təsərrüfatının inkişafı üçün suvarma sistemlərinin elektrik təminatının yenidən qurulmasına, sənaye sahələrinin və turizm obyektlərinin elektrik təchizatının etibarlılığının yüksəldilməsinə gətirib çıxardı. Fiziki cəhətdən köhnəlmiş elektrik dirəkləri, naqillər, transformatorlar yeniləri ilə əvəzlənərək, müasir tipli yarımstansiyalar və Komplekt Transformator Məntəqələri quraşdırıldı. Bu sahədə maddi-texniki baza kökündən yenilənərək ən müasir texnoloji avadanlıqlarla təchiz olundu. Vüqar Əhmədov daha sonra bildirdi ki, regional şəbəkələrin yenidənqurulması və yeni texnoloji avadanlıqlarla təchiz olunması ilə bərabər onların idarə edilməsi, normativlərə əməl olunması, yeni kadr potensialının formalaşdırılması üçün kompleks tədbirlər həyata keçirilir.














“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov daha sonra bildirdi ki, ən ümdə vəzifə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, ölkə ərazisində istehlakçıları keyfiyyətli, etibarlı və səmərəli şəkildə elektrik enerjisi ilə təmin etmək, dövlət başçısının etimadını yüksək səviyyədə doğrultmaqdır. Ötən 5 il deməyə əsas verir ki, biz bu yolda inamla və yorulmadan irəli gedirik.

Qarşıda duran vəzifələrdən söz açan cəmiyyət sədri toplantı iştirakçılarına ayrı-ayrılıqda öz tövsiyə və tapşırıqlarını da verdi.

Digər məruzəçilər də görülən işlər haqda geniş hesabat verərək son illərdə 41 ədəd 110 kV-luq YS-nin, 110 ədəd 35 kV-luq YS-nin, 135 ədəd 10-6 kV-luq TM-nin, 3,943 ədəd tikintisi 10-6 kV-luq KTM-nin tikintisindən söz açmış, 35,505 km müxtəlif gərginlikli EVX-lərin çəkilməsini, 42 ədəd 110 kV-luq YS, 258 ədəd 35 kV-luq YS, 12,300 ədəd 10-6 kV-luq TM və KTM-lərin, 22,000 km müxtəlif gərginlikli EVX-lərin təmirini də çatdırdılar. Çıxışlarda, həmçinin 590 yaşayış məntəqəsinin 0,4 kV-luq elektrik şəbəkələrinin tam yenidən qurulması, gücü 55 MVt təşkil edən Yeni Yaşma və Şurabad qəsəbələrində külək elektrik stansiyaları bərpa olunaraq elektrik şəbəkələrinə qoşulması da səslənib.

Hazırda Bakı şəhəri, Binəqədi rayonunda 110/35/6 kV-luq 91 saylı, Ağsu rayonunda “Ağabəyli”, Quba rayonunda “Rustov”, İmişli rayonunda “Muğanlı” və “Aranlı”, Şamaxı rayonunda “İqamətgah” 35 kV-luq yarımstansiyaların tikintisi aparılır. 2020-ci ildə 77 kəndin 0,4 kV-luq elektrik şəbəkələrinin yenidənqurulması nəzərdə tutulur və 20 kənddə bu istiqamətdə işlər davam etdirilir. Hər region üzrə 5 ədəd 35 kV-luq yarımtansiyanın əsaslı təmir işlərinin aparılması planlaşdırılmışdır, 27 ədəd dağ kəndinin elektrik şəbəkələrinin yenidənqurulması üçün layihə işləri aparılır.

Respublikada keçirilən beynəlxalq tədbirlərlə, idman yarışları ilə, müxtəlif konfrans və iclaslarla əlaqədar elektrik enerjisi təminatının yüksək səviyyədə təşkil olunmasında “Azərişıq” ASC-nin kollektivi fəal iştirak etmişdir.

2019-cu ilin yekunlarına həsr olunmuş tədbirdə səslənən bütün fikirlər növbəti illərdə də tapşırıq və öhdəliklərin uğurla, yüksək peşəkarlıqla başa çatdıracaqlarına əminlik ifadə etdirirdi.

# Paşinyanın növbəti uğursuzluğu

## Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır

*Əvvəli 1-ci səh.*

Ermənistanın sabiq maliyyə naziri Qaqik Xaçatryan isə 1,747 milyard dram dövlət vəsaitini mənimsəməkdə ittiham edilir. Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin rəsmi saytının yaydığı məlumatda bildirilir ki, sabiq maliyyə naziri öz müavini ilə ilkin razılığa gələrək ölkənin gömrük sisteminin ehtiyacları üçün 2 milyard 282 milyon dram dəyərində 8500 elektron kilid alıb, halbuki cəmi 2000 kilidə ehtiyac olub. 2019-cu ilin oktyabr ayı üçün olan məlumatlara əsasən, cəmi 251 kilid istifadə edilib. Nəticədə dövlətə ciddi maddi ziyan vurulub.

Aparılan müstəqil sorğulara görə, baş nazirə etimad azalmaqda davam edir. Hakimiyyətdə olduğu ötən müddət ərzində ölkənin makroiqtisadi göstəriciləri, əhalinin güzəranı yaxşılaşmayıb. Sosial-iqtisadi göstəricilər daha da pisləşib, ölkədən kütləvi köç azalmayıb, xarici borclar artıb, Ermənistana böyük sərmayə yatırımına nail olunmayıb.

“Lragir” portalı yazır ki, Paşinyan tərəfindən iqtisdi inkişafla bağlı formalaşdırılan ideyaları xalq hələ ki, anlaya bilmir. Amma əhalinin əsas gəlir mənbəyi olan kənd təsərrüfatındakı tənəzzülü, ölkənin başqa sahələrindəki “yüksəlişə” qatıb uğur kimi qiymətləndirmək başa düşülən deyil: “Görəsən ölkənin hələ ki, əsas aparıcı sahəsi olan kənd təsərrüfatındakı tənəzzülü aradan qaldırmaq üçün baş nazir nəyə ümid edir? Bəlkə, ölkədə bir neçə fermerin də qatıldığı pilot məhsul sığortası hesabınamı? Qeyd edilməlidir ki, bu gün Ermənistanda kənd təsərrüfatına mənsub səlahiyyətlilər hələ ki, əyalətlərdə ciddi təşəbbüslə çıxış etməyiblər. Əslində, bu da əsassız deyil. Çünki Paşinyan hökumətinin dövlətə dəstək proqramında yeni bir şey yoxdur: hamısı özündən əvvəlkilərdən qalan mirasdı. Məhz bu mənada, bunların ötən illə müqayisədə daha uğurlu olacağına ölkədə inanan yoxdur”.

Bu gün ölkənin ixracdan daha çox idxal etdiyini bildirən sayt, nəticə olaraq xarici ticarət balansının mənfi saldosunun dərinləşdiyini xüsusi qeyd edir. Lakin maraqlıdır ki, nə Paşinyan şəxsi “Facebook” səhifəsində, nə də onun komanda üzvləri ictimaiyyətlə ünsiyyətdə olarkən bu barədə danışmaqdan yayınırlar.

Bildirilir ki, Ermənistan Statistika Komitəsinin rəsmi məlumatına görə, 2019-cu ilin son aylarında ölkənin xarici borcu 5 milyard 573 milyon dollardan, 5 milyard 790 milyon dollara yüksəlib, yəni 217 milyon dollar artıb. Ermənistana sərmayə yatırılmır və dünya təcrübəsi də göstərir ki, xarici investisiya axını olmayan ölkə inkişaf edə bilməz. Yeni bir sual doğur, Paşinyan və onun komandası bu istiqamətdə hər hansı bir addım atıblarmı? Təbii ki, yox! Demək olar ki, təkcə Paşinyan hakimiyyəti dövründə ölkəyə birbaşa xarici sərmayə 60 milyon dollardan çox azalıb. Ancaq Paşinyanın belə bir şəraitdə ölkənin “parlaq inkişafı” ilə bağlı “Facebook” səhifəsindəki paylaşmaları insanda gülüşdən çox ikrah hissi oyadır.

Bu arada, ağır sosial-iqtisadi vəziyyət fonunda Ermənistanda müşahidə olunan hallardan biri də yenidən çoxsaylı etiraz aksiyalarının başlanmasıdır. Bu günlərdə Ermənistan Müdafiə Nazirliyi binası qarşısında əsgər valideynləri etiraz aksiyaları keçiriblər. Buna səbəb nazirliyin birinci ordu korpusu ərazisində qar uçqunu altında qalan 8 hərbçidən 4-nün ölməsi, digərlərinin isə ağır vəziyyətdə olmasıdır. Eyni zamanda əslən Ermənistanın Ararat bölgəsindən olan 2000-ci il təvvəllüdlü müddətli əsgər Valeri Karapetyanın işğal olunmuş Dağlıq Qarabağdakı hərbi hissələrin birində müəmmalı ölümü valideynlərin etirazlarına səbəb olub.

İctimai nəqliyyat vasitələrinin sürücüləri də kütləvi tətillərə başlayıblar. 350-dən çox sürücünün etirazı ictimai nəqliyyatı iflic edib. 20-25 dərəcə şaxtalı havada minlərlə sakin dayanacaqlarda saatlarla marşrut avtobusunu gözləmək məcburiyyətində qalıb. Etirazlara əsas səbəb fevralın 1-dən yanacaqdoldurma məntəqələrində qazın qiymətinin 25 faiz bahalaşmasıdır.

Görünən odur ki, hakimiyyət getdikcə dərinləşən problemlərə son qoymaq iqtidarında deyil. Elə bu səbəbdən qarşıdakı müddət ərzində Ermənistanda vəziyyətin daha da pisləşməsi gözlənilir.

**_Elçin CƏFƏROV,_**
**_“Azərbaycan”_**

## İctimai Televiziya və Radio Yayımları Şirkəti 3D proqramda dekorasiyanın hazırlanması işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı hər bir LOT üçün 50 manatdır.

**Adı: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi r-n filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**Adı: İctimai Televiziya və Radio Yayımları Şirkəti**
**Hesab №: AZ11AIIB33010019441102259111**
**VÖEN: 2000435761**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06.03.2020-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.03.2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.03.2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

E-şərtlər toplusunu **14.02.2020-ci il saat 16:00-dan** sonra əldə etmək olar.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

LOT 1 - Yanğın siqnalizasiya sistemi üçün ehtiyat hissələrinin satın alınması
LOT 2 - Sutəmizləyici qurğular üçün təmir materiallarının satın alınması

İddiaçılara təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar hər bir LOT üzrə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) **06 mart 2020-ci il saat 10:00-a,** tender təkliflərini (təklifin təminatı ilə birlikdə) **17 mart 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər **18 mart 2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə *tender elan edir*

| | |
|---|---|
| LOT 1 | Matrix printer üçün lent |

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

LOT 1 150 manat

məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: “Azərpoçt” MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının anoloji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) %-ni təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istina olmaqla) **06 mart 2020-ci il saat 15:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **17 mart 2020-ci il saat 15:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **18 mart 2020-ci il saat 15:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: Texnikalar üçün ehtiyat hissələrinin satın alınması.

Tender iştirakçıları https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

**İştirak üçün ödənilən vəsait heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06 mart 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **17 mart 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 mart 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Şəki Acınohur QOSTSİ İdarəsi cari təmir işlərində istifadə ediləcək tikinti materialları və nəqliyyat vasitələrinə ehtiyat hissələrinin satın alınması məqsədilə *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2020-ci il tarixinə kimidir.

İddiaçılar tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərlər. Əlaqələndirici şəxs: Musayev Etiqad Etibar oğlu

Ünvan: Şəki şəhəri, Bağbanlar küçəsi, 59
E-mail: **acinohur93@mail.ru**
Tel: (024) 244-88-90

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

**LOT 1 - Cari təmir işlərində istifadə ediləcək tikinti materialları və nəqliyyat vasitələrinə ehtiyat hissələrinin satın alınması**

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 120 (bir yüz iyirmi) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Bank rekvizitləri:

**Acınohur Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsi**
**VÖEN: 3000178451**
**AZ5500, Şəki şəhəri, Bağbanlar küçəsi, 59**
**Tel.: (024) 244-88-90**
**E-mail: acinohur93@mail.ru acinohurqostsii@mst.gov.az**
**Kapital Bank Şəki filialı**
**VÖEN : 9900003611**
**Kod: 200703**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**
**Şəki YXO**
**VÖEN: 3000104011**
**H/H: AZ03AIIB32051019447000201170**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. *İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
2. *Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 22 (iyirmi iki) bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 22 (iyirmi iki) bank günü çox olmalıdır);*
4. *Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*

*4.1. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*4.2. Fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*4.3. Maliyyə vəziyyəti haqqında bank arayışı;*
*4.4. Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmamasına dair arayış;*
*4.5. İddiaçının nizamnaməsi;*
*4.6. Dövlət reyestrindən çıxarış (qeydiyyatdan keçdiyi ölkə);*
*4.7. İddiaçının rekvizitləri.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **05.03.2020-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **16.03.2020-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **17.03.2020-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Şəki Acınohur QOSTSİ İdarəsi cari təmir işlərində istifadə ediləcək tikinti materiallarının satın alınması məqsədilə *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2020-ci il tarixinə kimidir.

İddiaçılar tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərlər. Əlaqələndirici şəxs: Musayev Etiqad Etibar oğlu

Ünvan: Şəki şəhəri, Bağbanlar küçəsi, 59
E-mail: **acinohur93@mail.ru**
Tel: (024) 244-88-90

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

**LOT 1 - Cari təmir işlərində istifadə ediləcək tikinti materiallarının satın alınması**

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 120 (bir yüz iyirmi) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Bank rekvizitləri:

**Acınohur Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsi**
**VÖEN: 3000178451**
**AZ5500, Şəki şəhəri, Bağbanlar küçəsi, 59**
**Tel.: (024) 244-88-90**
**E-mail: acinohur93@mail.ru acinohurqostsii@mst.gov.az**
**Kapital Bank Şəki filialı**
**VÖEN: 9900003611**
**Kod: 200703**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**
**Şəki YXO**
**VÖEN: 3000104011**
**H/H: AZ03AIIB32051019447000201170**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. *İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
2. *Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 22 (iyirmi iki) bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 22 (iyirmi iki) bank günü çox olmalıdır);*
4. *Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*

*4.1. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*4.2. Fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*4.3. Maliyyə vəziyyəti haqqında bank arayışı;*
*4.4. Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmamasına dair arayış;*
*4.5. İddiaçının nizamnaməsi;*
*4.6. Dövlət reyestrindən çıxarış (qeydiyyatdan keçdiyi ölkə);*
*4.7. İddiaçının rekvizitləri.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **06.03.2020-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **17.03.2020-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifi zərfləri **18.03.2020-ci il saat 15:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Mahmud Məmmədov Kənan Beşirova və doğmalarına atası

**ŞƏRİF BEŞİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Günay Bank” ASC-nin kollektivi Departament direktoru Kənan Beşirova və doğmalarına atası

**ŞƏRİF BEŞİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Slavyan Universitetinin Müasir rus dili kafedrasının əməkdaşları dosent İbrahimpaşa Babayevə həyat yoldaşı

**HİCRAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6940
Sifariş 499
Qiyməti 40 qəpik